

# 12

## BAKI BEYNƏLXALQ QISA FİLMLƏR FESTİVALI

## BAKU INTERNATIONAL SHORT FILM FESTIVAL

**19-23 NOYABR 2021**

www.filmfestival.az

cinema
mərkəzi

12 il Festivalla birgə yola çıxdıq, birgə böyüdük. İşimiz həm çətin, həm zövqverici oldu. Bütün hallarda Siz tamaşaçıları düşündük. Son iki ildəki çətinliklərə baxmayaraq, dayanmadıq, durmadıq. Dünyanın dörd bir yanında mükafat almış qısa filmləri Sizə gətirdik.

# TƏRƏFDAŞLAR

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

NIZAMI
CINEMA CENTER

cinema
mərkəzi

AZƏRBAYCANFİLM

AZƏRBAYCAN
DÖVLƏT FİLM FONDU

BRITISH
COUNCIL

HILLSIDE
PREMIUM

AZƏRBAYCAN
PRODUSERLƏR
GİLDİYASI

film

BAKU
INTERNATIONAL
SHORT FILM
FESTIVAL

Kino arzuları reallaşdırır. Real dünyada irreal və eyni zamanda daha real bir məkandır. Azərbaycan da belədir. Arzularını real müstəvidə irreal əzmlə reallaşdırır.

Bakı Beynəlxalq Qısa Filmlər Festivalının bu ilki təqdimatı Azərbaycan ilə Kinemotoqrafın bağrıbadaş paralelliyini gündəmə gətirir. Ən istedadlılara, qaliblərə və yüksək texnointibah ruhlulara örnək platforma olmaq bacarığı, həyatı bir az da gözəlləşdirməyə  və yaxşılaşdırmağa xidmət edir. Biz yaxşını pisdən, pisi yaxşıdan ayırıb dünyanı daha mükəmməl etmək istədik. Biz gənclərə və istedadlılara özlərini sınamaq, bizə audiovizual mədəniyyət vasitəsi ilə dünyanı gördükləri kimi anlatmaq şansını verdik. Biz festivalın zamanı qədər olan bu "beş günlük" dünyaya bu dəfə onların gözüylə baxdıq. Və fikrimcə yanılmadıq.

Onlar bu işi bacarırlar.

Onlar olduğundan daha yaxşı bir dünya görə bilirlər. Və bizə təqdim edirlər.

Kino sənətini yaratmaq da elə by məqamdır. Dünyanı öz gözünlə görüb, anlayıb, sonra da dünyadakılara təqdim etmək bacarığı və danışdığın əhvalatı insanlara sevdirmək məharəti.

Bu gün dünya bir o qədər də bayram əhvalında deyil. Fikirli və qayğılıdır. Dini, siyasi, ekoloji və iqtisadi  böhran yaşamaqdadır. İnsanlığa yeni baxış modeli təklif edə bilən real platforma olan kino sektorunda birləşib qısa formatda böyük həqiqətləri söyləyə bilən yaradıcı insanları sizə təqdim etməkdə məqsədimiz dünyanı daha yaxşı məkana çevirməkdir.

İnanıram ki buna görə bizi qınamayacaqsız.

Sizi hər il festivalımızda görməyə şadıq.

Qısa həcmli filmlər istehsal etmək asan iş deyil. Bu format səndən ən əvvəl mükəmməl ssenari tələb edir. Rejissorun da kiçik həcmli işlərdə nəfəs dərimi bir o qədər geniş deyil. Filmin musiqisi, vizual həlli də həcmcə azdır. Bununla belə bu incəlikləri bilmək belə istəməyən tamaşaçı səndən sənət işi tələb edir. Və sən bunu edirsən. Hər halda sən bu cəhdi edirsən.

Daha doğrusu etmisən!

Etmisən ki, biz səni festivala dəvət etmişik.

Sizin aranızda məğlub yoxdur. Ona görə ki, peşəniz qalib peşədir. Azərbaycana xoş gəlmisiz.

Bura da qaliblərin vətənidir!

**Orxan Fikrətoğlu**
**Festivalın Fəxri prezidenti (2021-2022)**



Cinema realizes dreams. It is irreal in the real world and at the same time is a more realistic space. Azerbaijan does the same. It realizes the dreams in the real level of irreal perseverance.

This year's presentation of the Baku International Short Film Festival combines the parallelism of cinematographs with Azerbaijan together. The ability to be a sample platform to the winners, the most talented and high renaissance-spirited people, serves to beautify and improve life. We wanted to separate the best from the worst to make the world more perfect.

We gave a chance to the youth and talents to verify themselves, and explain us the world as they see through audio visual culture.

This time we looked at the "five-day" world, (five days festival period) with their eyes. I think we were not mistaken. They proved that they were able to do this.

They can see a better world than it exists. And they are able to achieve presenting that world to us.

It is also the very point to create cinema. The ability of presenting the world which you saw and understood to those who live there and make spectators to love the story you told them...

Today the world community is not in the holiday mood. They are thoughtful and anxious. Religious, political, ecological and economic crisis are experiencing.

In order to present the creative people joining in the cinema sector which is considered to be a real platform being able to offer a new review model to humanity, who are able to say great truth in a short format our goal is to turn the world into a better space.

I believe that you will not criticize us for this.

We are glad to see you at our festival every year.

It is not easy to produce short-volume films. First of all this format requires the perfect scenario. Directors as well, don't have many opportunities to manoeuvre in short films. The music, visualization of the film is short too.

However, the spectators having no idea of the subtleties of the work procedures will demand you professional work. And you are to do it. Anyway you are doing this attempt.

You have rather done it.

You did  it ,and that's why we invited you to the Festival.

None of you has lost, because the winner is your profession!

Welcome to Azerbaijan!

Here is the native land of the Winners!

**Orkhan Fikretoglu**
**Honorary President of the Festival (2021-2022)**

Ətrafımızda hər gün onlarla, bəlkə də yüzlərlə hadisə baş verir. Və bu hadisələr bizim arzularımızı, xəyallarımızı unutdurmağa çalışır. Hər gün dünyada minlərlə yeni ideyalar cəmiyyətə təqdim olunur. Bu informasiya bolluğunda insan övladı sakit, özünü rahat hiss edəcək bir məkan axtarır. Bir çoxları meqapolisin səs- küyündə özünü rahat hiss etsə də, bir qrup insan özünü xəyallarının ağuşuna atmağa çalışır. Bu istəyi isə sözsüz ki incəsənət, xüsusən də kino daha çevik yerinə yetirə bilir.

Bakı Beynəlxalq Qısa Filmlər Festivalı 5 dəqiqədən 35 dəqiqəyə qədər davam edən sehrli filmləri öz tamaşaçısına çatdırmağı qarşısına məqsəd qoyub. Qaranlıq zallarda siz həm güləcək, həm ağlayacaq, bəzənsə ekrandakı qəhrəmanların halına acıyacaqsınız. Amma bütün hallarda bunlar sizə 5 gün öz xəyallarınızla, ürəyinizin səsi ilə birlikdə olmağa imkan yaradacaq. O rahatlığı bu qaranlıq zalda tapacaqsınız.

Hər il olduğu kimi festivalımızda fərqli filmlər, fərqli müəlliflərlə sizi tanış edirik. Son iki ildə dünyada baş verən pandemiyadan dolayı ikiqat yorulan tamaşaçılarımıza müxtəlif ölkələrdən gələn ən gözəl filmləri seçib təqdim edirik. Yeri gəlmişkən... BAFTA...

Avropanın, dünyanın ən böyük kino mükafatlarından biri olan BAFTA da bizim qonağımızdır bu il. 2020-2021-ci illərdə BAFTA mükafatı uğrunda yarışan filmlər də Sizinlə birlikdə olacaq.

12 yaş yeniyetmə yaşı olsa da biz bu illər ərzində dünyanın ən böyük kinofestivallarında yarışmış və uğur qazanmış qısa filmləri nümayiş etdirdik. Bu festivalda qalib olan onlarla gənc sonradan hətta “Oskar” mükafatının finalçısı, Kann festivalının mükafatçısı oldu. Festivalın münsiflər heyətində Berlin, Kann, Moskva festivallarında mükafat alan peşəkarlar iştirak etdi. Düşünürəm ki, ölkəmizin mədəni hadisələrindən biri olaraq, bu festivalın Azərbaycan tamaşaçısına və film istehsalçısına dəstəyi həmişə davam edəcək. Bu festivalda izləmədiyiniz filmləri görəcəksiniz.

Biz fərqlilik yaratmaqda maraqlıyıq. Bu baxımdan da festivalın daha çox qısa filmlərin istehsalına dəstək göstərməsinə çalışırıq. Bu il ancaq YERLİ MÜSABİQƏ qaliblərinə təqdim edəcəyimiz mükafat fondu 5000 manatdır. Düşünürəm ki, növbəti illərdə bu mükafatla yanaşı filmlərin birbaşa istehsalında da rejissorların yanında olacağıq, onların seçilmiş fərqli layihələrinə dəstək duracağıq.

Festival həm də fərqli baxışların məkanıdır. İçinizdəki fərqliliyi hiss edirsinizsə, buyurun, Sizi burada 12.Bakı Beynəlxalq Qısa Filmlər Festivalında gözləyirik!

**Fehruz Şamiyev**
**Festivalın direktoru**



Every day, dozens, perhaps hundreds, of events occur all around us. And these events attempt to make us forget our hopes and dreams. Thousands of new ideas are introduced to the globe every day. Human beings are seeking a location where they may feel peaceful and comfortable with the abundance of information. Many people may feel at ease amid the clamor of the metropolis, however a group of people try to fling themselves into the arms of their fantasies. Without a doubt, art, particularly cinema, can more easily satisfy this desire.

The Baku International Short Film Festival wants to bring you amazing short films that last between 5 and 35 minutes. You'll laugh and cry in the gloomy halls, and sometimes you'll feel sorry for the characters on screen. In all cases, they will allow you to spend 5 days with your dreams and the voice of your heart. In this dark hall, you will find solace.

At our festival, we introduce you to a variety of films and authors, as we do every year. We choose and show the best films from many nations to our audience, who are doubly tired of the global epidemic that has occurred in the last two years. By the way... BAFTA...

This year's visitor is BAFTA, one of Europe's and the world's most prestigious film awards. Films competing for the BAFTA award in 2020-2021 will be with you.

We have showed short films that have competed and won at the world's top film festivals despite being 12 years old as teenagers. Several young people who won the contest went on to become Oscar finalists and Cannes Film Festival winners. Professionals who have won awards at festivals in Berlin, Cannes, and Moscow made up the festival's jury. As one of our country's cultural events, I believe this festival will always promote Azerbaijani audiences and filmmakers. This festival will feature films that you haven't seen before.

We like to make a difference. We are attempting to assist the festival in producing more short films in this regard. This year's prize pool is 5,000 manat, which will be awarded only to the winners of the LOCAL COMPETITION. I believe that in the coming years, in addition to this award, we will be assisting directors in the direct production of films and supporting their various projects.

The festival is also a place of different views. If you notice a change inside you, come to the 12th Baku International Short Film Festival, where we await your arrival!

**Fehruz Shamiyev**
**Director of the Festival**

# 12 il Sizinlə
# years with you

CINEMA Gənc Kinematoqrafçılar Mərkəzi tərəfindən 2004-cü ildə təsis edilən Bakı Beynəlxalq Qısa Filmlər Festivalı əvvəlki illərdə START BQFF adı ilə fəaliyyət göstərib.

Bakı BQFF 12 il ərzində Kann, Venesiya, Berlin Film Festivallarında, “OSKAR”da mükafat və uğur qazanmış filmlərin nümayiş məkanına çevrilib.

Hər il dünyanın müxtəlif ölkələrindən göndərilən filmlər arasından ən maraqlıları seçilərək festivalın proqramına daxil edilir. Artıq BBQFF onlarla xarici və yerli rejissor, prodüser, ssenaristin görüş yeridir.

Bundan başqa fərqli yanaşma tərzi, hadisələri maraqlı üslublarda göstərməyə çalışan yerli rejissorların yeni filmlərini də beş gün ərzində tamaşaçılara təqdim edirik.

Bakı BBQFF ölkəmizdə kinematoqrafın təməllərindən hesab olunan qısa filmlərə marağın artırılması, gənc kinematoqrafçıların həvəsləndirilməsi və onlara dəstəyi özündə birləşdirir.

On iki ildir payızda reallaşan bu festivalda dünyada və ölkəmizdə baş verən mədəni, siyasi, sosial hadisələri və müxtəlif xarakterləri özündə birləşdirən rəngarəng filmləri nümayiş etdirməkdən qürur duyuruq.

Baku International Short Film Festival, founded in 2004 by the CINEMA Young Filmmakers Centre, has taken place in previous years under the name of START ISFF.

For 12 years, the Baku International Film Festival has become a platform for award-winning and successful films at Cannes, Venice, Berlin Film Festivals and the Oscar.

Each year, the most interesting films among more than 1500 films sent from different countries of the world are selected and included in the program of the festival. BISFF is already a meeting place for dozens of foreign and local directors, producers and scriptwriters.

In addition, we introduce new films of local directors for five days, trying to show the events in a unique approach and having an interesting style.

The BISFF combines developing interest in short films that are considered to be the foundations of cinema in our country, encouraging and supporting young cinematographers.

We are proud to show colorful films at this festival that happening in the fall for twelve years and combining cultural, political, social events and different characters of the world and our country.



## Şəfiqə Məmmədova

Aktrisa | Azərbaycan

"Festivalın, sizlərin sayəsində bir neçə gün özümü çox cavan hiss etdim. Kinomuzun inkişafında festivalın rolu böyükdür. Arzu edirəm ki, ölkəmizdə festivalların sayı çox olsun. İstedadlı gənclərimiz çoxalsın, kinomuz yaşasın və dünya miqyasında tanınsın".



## Rezan Yaşılbaş

Kinorejissor | Türkiyə

"Dünyanın bir çox ölkələrində film festivalları keçirilir. Bakıdakı festivalın məhz qısa filmlərdən ibarət olmasını çox bəyəndim. Qısa film mənə görə müəllifin öz düşüncələrinin ifadəsidir. Filmlərdə fərqli düşünmə tərzləri görürük. Bütün bunları heyrətlə izləyirik və bizə təsir edən filmlər düşüncəmizin dəyişməsinə səbəb olur.
İzlədiyim filmlər haqqında onu deyə bilərəm ki, çox gözəl filmlər göndərilib və hər birini çox bəyəndim".



## Ayaz Salayev

Kinoşünas, kinorejissor | Azərbaycan

"Bu festival yüksək səviyyədə keçirilir. Tamaşaçılara çox böyük proqram təqdim olunur. Proqramda çox maraqlı filmlər yer alıb. Ümumiyyətlə kino sənəti istənilən ölkənin iqtisadiyyatını, mədəniyyətini, daxili və xarci siyasətini zənginləşdirən amildir. Necə ki, kino həyatın güzgüsüdür, eləcə də festival kinonun güzgüsüdür".



## Oleq Səfərəliyev

Kinorejissor | Rusiya – Azərbaycan

"Kino sənayesi inkişaf etməlidir. Sənətkarlar filmlər çəkməlidir, yeni gənc rejissorlar öz bacarıqlarını üzə çıxarmalı və öz işlərini ictimaiyyətə göstərməlidirlər. Festivalın mühüm əhəmiyyəti ilk növbədə yerli gənc rejissorlara yönəlib. Onlara müvəfəqiyyət arzu edirəm. İnanıram ki, yaxın vaxtda bizim kinoda da yüksək səviyyəli bədii əsərlər çəkiləcək".



## Rafiq Quliyev

Kinorejissor | Azərbaycan

"Baxdığımız filmlərin hamısı mövzusu ilə bizi çox maraqlandırdı. Belə deyək, özümüz də bir az gəncləşdik. Həqiqətən də öz estetikası, öz nəfəsi, öz eksperimental ruhu ilə bizi həddən artıq özünə cəlb elədi bu filmlər. Müsabiqə proqramına qatılmış bədii filmlər barədə onu vurğulamaq istərdim ki, yüksək keyfiyyəti, bədii dəyərləri, texnoloji baxımdan yerinə yetirilmə metodikası, üslubu ilə bizi həddən artıq qane etdilər."



## Nadir Bədəlov

Redaktor, ssenarist | Azərbaycan

"Mənim dünyaya baxışım bir başqadır, festivalda iştirak edən filmlərin müəlliflərinin baxışı tamamilə fərqlidir, bu baxımdan olduqca maraqlı bir dioloq alındı. Mən gənclərlə tanış oldum. Səmimi deyirəm, bu festival məndə yeni nəslə ümid yaratdı".



## Yelena Yatsura

Prodüser | Rusiya

“Mən həmişə gənc kinonu təqdim edən festivalların tərəfdarıyam. Sizin festivalın da üstün cəhəti odur ki, çoxlu sayda gənc kino əsərləri göstərirsiniz. Bu çox maraqlıdır. Mən əmin idim ki, elə bir festivala gedirəm ki, orada görəcəyim filmləri başqa yerdə görməyəcəm. Çünki mən filmlərə canlı baxmağa üstünlük verirəm”.



## Gülzar Qurbanova

Aktrisa | Azərbaycan

“Bu festivalda münsif kimi çıxış etmək mənə çox xoşdur. Festival həm də ona görə dəyərlidir ki, burada gənclər, debütantlar öz fikirlərini azad ifadə edə bilir və müsabiqəyə təqdim edə bilirlər. Eyni zamanda öz yanaşmalarını başqalarının fikirləri ilə müqayisə etmək imkanı qazanırlar. Öz yaradıcı təcrübələrini başqaları ilə bölüşə bilirlər. Fikir mübadiləsində də yeni fikirlər əmələ gəlir. Ümumiyyətlə, deyərdim ki, festival fikir mübadiləsi üçün bir bəhanədir.”.



## Vidadi Həsənov

Aktyor | Azərbaycan

“Festival bayramdır. Bu bayramı təşkil edənlərə təşəkkürümü bildirirəm. Festival həm də bir hesabatdır. Bu heyətdə olduğum üçün özümü şanslı insan sayıram. Festival zamanı bir çox filmlərə baxdıq. Bu filmlər nəticəsində azərbaycanlı gənclərin düşüncə tərzləri ilə tanış olduq. Biz onlar üçün hansı mövzuların aktual olduğunu gördük. İnanıram ki, bu festivaldan gələcəyin böyük sənətçiləri çıxacaq”.



## Artçil Xetaquri

Rejissor, prodüser | Gürcüstan

“Mənim üçün bu festivalın əhəmiyyəti təkcə gəncləri və yaradıcı insanları bir araya toplamaqdan ibarət deyil. Bu festivalda göstərilən filmləri geniş ictimaiyyət nə televiziyada, nə də onlayn platformalarda izləyə bilirlər. Bu mənada festival tamaşaçıları hər zaman çox şanslıdırlar. Çünki onlar əlçatmaz filmləri izləyə bilirlər. Bu çox mühüm məqamdır”.



## Rüfət Əsədov

Kinorejissor | Azərbaycan

“Fərqli mövzusu, yanaşması olan maraqlı filmlərlə qarşılaşdıq. Qaliblər təbrik edir, digər iştirakçılara uğurlar arzulayıram. Bu festival bu il 11-ci dəfədir keçirilir.
Əgər 72 ölkədən 3086 film daxil olubsa, bu, artıq Festivalın prestijidir. Seviniram ki, təşkilatçılar bu il festivalı reallaşdıra bildilər, ənənəni davam etdirdilər. Bu, çox vacib məsələdir”.



## İlqar Safat

Rejissor | Azərbaycan

“Baxdığımız filmlərin hamısı çox maraqlıdır. Əminəm ki, tamaşaçılar da onları layiqincə qiymətləndirə biləcək. Biz münsiflər heyəti kimi təqdim olunan əsərlər arasında ən peşəkar və emosional cəhətdən təsir göstərən əsərləri seçəcəyik. Çox istərdim ki, bu festival uzun müddət yaşasın və istedadlı rejissorlara bu yolda cığır açsın”.

# MEDİA TƏRƏFDAŞLARI

Space

GÖZÜNÜZ BİZDƏ OLSUN...

Space

AVTO FM 107.7

trend news agency

kulis.az

TELEQRAF .COM

Milli.Az İNTERNET PORTALI

KİNOBİZ

FILM FICTION MAGAZINE

MƏDƏNİYYƏT

BAKU INTERNATIONAL SHORT FILM FESTIVAL

BAKU
INTERNATIONAL
SHORT FILM
FESTIVAL



## Orxan Fikrətoğlu (Azərbaycan)
Orkhan Fikretoglu (Azerbaijan)

**Yazıçı, ssenarist, rejissor, jurnalist**
Writer, screenwriter, director, journalist

M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirəndən sonra "Azərbaycanfilm" kinostudiyasında çalışmağa başlayıb. AzərTelefilmin baş redaktoru, MİR Teleşirkətinin direktor müavini, "Mozalan" studiyasının direktoru olub. "Ümid", "Yalan", "Ərazi", "Dönüş", "Murtuza", "Cümhuriyyətin 9 şəkli" və başqa bədii və sənədli filmlərin ssenari müəllifidir. Uzun illər respublika TV-lərində publisistik verilişlərin müəllifi olub. Azərbaycan tamaşaçısına publisist, yazıçı kimi tanınıb. On dörd bədii, üç publisistik kitabın müəllifidir. Əsərləri İran, Türkiyə, Bolqarıstan, İsveç və bir çox dünya ölkələrində çap olunub. "Yeddi" adlı romanı Almaniyada mükafata layiq görülüb.

He began working at the Azerbaijan film studio after graduating from the Gorky Institute of Literature. He was the editor-in-chief of AzerTelefilm, as well as the deputy director of MIR TV Company and the director of the "Mozalan" studio.
He has written screenplays for films such as "Hope," "Lie," "Territory," "Return," "Murtuza," "9 pictures of the Republic" and others. He was the author of publicist programs on national television for many years. He is well-known in Azerbaijan as a publicist and writer. He is the author of fourteen fiction and three publicist books. Iran, Turkey, Bulgaria, Sweden, and a number of other countries have published his works. His novel "Seven" won an award in Germany.



## Erdem Tepegöz (Türkiyə)
Erdem Tepegoz (Turkey)

**Rejissor, ssenarist**
Director, screenwriter

Dokuz Eylül Universitetində İqtisadiyyat fakültəsini bitirib. Praqada kino təhsili alıb. Dünya üzrə səyahət edərək, bir sıra sənədli filmlər lentə alıb. "Zərrə" ilk tammetrajlı filmi 23 mükafata, o cümlədən ən yaxşı film kimi 35-ci Moskva Beynəlxalq Kinofestivalında "Müqəddəs Georgi", "ən yaxşı rejissor" və "ən yaxşı film" nominasiyalarında 49-cu Antaliya Beynalxalq Kinofestivalında "Qızıl portağal" mükafatlarına layiq görülüb və 30 ölkədə nümayiş olunub. "Kölgələr içində" ikinci tammetrajlı fimi də nüfuzlu beynəlxalq film festivallarında mükafatlar alıb.

Graduated from Dokuz Eylul University, Department of Economics. He studied film directing in Prague. He traveled all around the world for making many documentaries. "Zerre" (The Particle), his first feature film that he had written and directed, won almost 23 awards including Best Film St. George at the 35th Moscow International Film Festival, Best Director and Best First Film at the 49th Golden Orange Film Festival in Antalya and the movie was screened in 30 countries. "In the Shadows" his second feature film also won awards at prestigious international film festivals.



## Yuliya Sinkeviç (Ukrayna)
Julia Sinkevych (Ukraine)

**Kinoprodüser**
Film producer

Kinoprodüser, Ukrayna Kino Akademiyasının Müşahidə Şurasının həmtəsisçisi və üzvü, Avropa Kino Akademiyasının üzvü, Ukraynanın "Oskar" Komitəsinin üzvüdür. 2010-cu ildən Odessa Beynəlxalq kinofestivalının baş prodüseri olub. Bir neçə il "Arthouse Traffic" distribütor-prodüser şirkətində çalışıb. Burada o, "Qəzəbli ukraynalılar" Qısa Filmlər Festivalında xüsusi proqramların təbliği, həmçinin gənc ukraynalı kinematoqrafçıların tanıdılması, Ukrayna və xarici kino sənayesi mütəxəssisləri arasında beynəlxalq əməkdaşlığın yaradılması ilə məşğul olub.

She is film producer, co-founder and member of Supervisory Board of Ukrainian Film Academy, member of European Film Academy, member of Ukrainian Oscars committee. Since 2010 Julia worked as general producer of Odesa International Film Festival. Working previously for several years for distribution and production company "Arthouse Traffic" Julia was in charge of special short films "Angry Ukrainians" programs festival promotion as well as was in charge of promotion of young Ukrainian filmmakers and international cooperation between film industry professionals from Ukraine and abroad.



## Miroslav Mogoroviç (Serbiya)
Miroslav Mogorovic (Serbia)

**Prodüser**
Producer

Fəaliyyətinə Serbiya Milli Konqreslər və Konfranslar Mərkəzində konvensiya və festivallar meneceri kimi başlayıb. 1995-ci ildə hazırda proqram direktoru olduğu Palic Avropa Film Festivalında icraçı direktorun köməkçisi kimi işini davam etdirib. 2002-2006-cı illərdə Belqrad Beynəlxalq Kinofestivalının icraçı prodüseri olub. 2004-cü ildə o, ölkəsinin ən məhsuldar müstəqil kino şirkətlətindən biri olan "ART & POPCORN Motion Picture Company"-nini təsis edib.

He started working as convention and festival manager in the Serbian National Congress and Convention Centre. In 1995, he assumed the role of Assistant Managing Director of the European Film Festival Palic where he now serves as Programme Director. From 2002 to 2006, he was the executive producer of Belgrade International Film Festival. In 2004, he founded one of the country's most productive independent film companies, "ART & POPCORN Motion Picture Company".



## Səlim Babullaoğlu (Azərbaycan)
## Selim Babullaoglu (Azerbaijan)

**Tərcüməçi, şair, esseist**
Translator, poet, essayist

Şeir və esseləri bir çox dünya dillərinə çevrilən 48 yaşlı şair, tərcüməçi və esseist S.Babullaoğlu dünya ədəbiyyatından onlarla əsəri doğma dilimizə tərcümə etməklə bu sahədə görülən işlərə xüsusi bir rəng qatmışdır. 1990-cı illərin sonlarından başladığı missiyada B.Pasternak, Z.Herbert, Ç.Miloş, O.Vəli, F.H.Dağlarca və İ.Brodskinin şeir kitabları onun tərcüməsində işıq üzü görüb. 2002-ci ildə "İlin ən yaxşı tərcüməçisi" adına, Ankarada Füzuli Adına Beynəlxalq Poeziya Mükafatına və s. mükafatlara layiq görülüb. "Cərrah", "Qamış şəhərinin yuxuları" sənədli filmlərinin ssenari müəllifi, "Durnalar qayıtdı" bədii filminin redaktorudur. "Dünya ədəbiyyatı" dərgisində baş redaktor kimi çalışan S. Babullaoğlu mədəniyyət, o cümlədən kinematoqrafiya sahəsində də bir çox məqalə və esselərin müəllifidir. Rusiya, Fransa, İspan ədəbiyyatından tərcümə etdiyi esselər onu ölkəmizdə bir yazar-tərcüməçi kimi daha da tanıdıb. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin və Beynəlxalq Ədəbiyyat Fondunun, Mərkəzi Asiya Pen Təşkilatının üzvüdür.

S.Babullaoglu, a 48-year-old poet, translator, and essayist whose poems and essays have been translated into dozens of languages around the world, has brought a distinctive color to the work done in this field by translating hundreds of works from international literature into our native language. Books of poetry by B. Pasternak, Z. Herbert, C. Milos, O. Vali, F. H. Daglarja, and I. Brodsky were published in his translation during the activity, which began in the late 1990s. He was named "Best Translator of the Year" in 2002, as well as receiving the Fuzuli International Poetry Award in Ankara and other honors. He wrote the screenplays for the documentaries "Surgeon" and "Dreams of the reed city" as well as the feature film "The cranes are back". S. Babullaoglu, the editor-in-chief of the magazine "World Literature," is the author of numerous articles and essays on culture, including cinematography. His pieces, which he translated from Russian, French, and Spanish literature, strengthened his reputation as a writer-translator in our country. He is a member of the Board of the Azerbaijan Writers' Union and the International Literature Foundation, the Central Asian Pen Organization.



## Mehriban Zəki (Azərbaycan)
## Mehriban Zaki (Azerbaijan)

**Aktrisa**
Actress

1990-cı ildən 2005-ci ilədək "Yuğ" Teatrında, sonralar isə İbrus və Milli Akademik Dram Teatrının səhnəsində özünəməxsus obrazlar yaradıb. "Şirəbənzər", "İvan Buninin son döyüşü" tamaşalarında oynadığı rollarla teatrsevərlərin rəğbətini qazanıb. Azərbaycanın xalq artisti adına layiq görülən aktirsa, 2005-ci ildə "Şərq-Qərb" Kinofestivalında "Küçələrə su səpmişəm" filmində canlandırdığı obraza görə "Ən yaxşı qadın" nominasiyası üzrə mükafat alıb. Müxtəlif illərdə istehsal olunan "Əlvida, cənub şəhəri", "Düyün", "Yalançılar", "Axınla aşağı" və s. filmlərdəki obrazları geniş tamaşaçı auditoriyası tərəfindən maraqla qarşılanıb.

From 1990 to 2005, she developed her own characters at the "Yug" Theater, and later on the Ibrus and National Academic Drama Theater stages. With her roles in the plays "Like a lion", "The last battle of Ivan Bunin", she gained the sympathy of theatergoers. The actress, who was named a People's Artist of Azerbaijan, won the East-West Film Festival's "Best Woman" award in 2005 for her role in the film "I watered the streets". Her images were in the films "Good Bye, Southern City", "Knot", "The Liars", "Down the river" and others, all of which were released in different years and had a large audience.



## Elməddin Alıyev (Azərbaycan)
## Elmaddin Aliyev (Azerbaijan)

**Kinorejissor**
Film director

2013-cü ildə Fransada Clermont-Ferrand Qısa Filmlər Festivalında "Ağ qan", 2015-ci ildə isə bu mötəbər festivalda "İşıq gələn tərəf" filmləri ilə iştirak edən rejissor sonrakı illərdə də özünəməxsus filmlərilə milli kinematoqrafımızda öz dəsti-xətti olan müəlliflərdən birinə çevrilib. ADMİU-nun Rejissorluq fakültəsini bitirdikdən sonra bir çox TV kanallarda çalışıb. "Məryəm" sənədli bədii filmindən sonra "Anamın kitabı", "Xosrov və Şirin" klassik əsərlərimizin motivləri əsasında eyniadlı çoxseriaylı TV filmlərini müasir formada çəkərək, televiziya tamaşaçılarına təqdim edib. "Koramal" qısa filmi ilə dünyanın bir çox festivallarında iştirak edib. Filmləri "Ən yaxşı rejissor", "Ən yaxşı operator", jürinin xüsusi mükafatlarını qazanıb. "Məryəm" filmi "Humay" mükafatına layiq görülüb.

The director, who participated in the Clermont-Ferrand Short Film Festival in France in 2013 with "White blood" and in 2015 with "The Light Side" at this prestigious festival, became one of the authors in our national cinema in the following years with his unique films. He worked for a number of TV networks after graduating from the Academy of Arts and Sciences of Azerbaijan's Faculty of Directing. Following the documentary "Maryam," "My mother's book", "Khosrov and Shirin" which were based on motifs from our classics, a series of TV films with the same name were produced in a modern format and shown to television audiences. With his short film "Grass-Snake", he has screened at numerous festivals around the world. His films won the "Best Director", "Best Operator" and special jury awards. The film "Maryam" won the "Humay" award.



# MÜSABİQƏ PROQRAMI
# COMPETITION PROGRAM

Beynəlxalq
müsabiqə



## Başqası
## The Other

İran / Iran 2020

Bədii / Fiction 25:00

Dindar kişi arvadının ölümündən sonra qadının ona başqa kişi ilə xəyanət etdiyindən şübhələnir.

A religious man after his wife death suspects her and he thinks his wife had a relationship with another man.



### Səmən Hossenpuor

On dörd yaşından teatrda çıxış edən Səmən rejissor və yazıçıdır.

### Saman Hosseinpuor

Saman, who has been performing in the theater since the age of fourteen, is a director and writer.



### Ako Zəndkərimi

Yeniyetməlik dövründən kinoya həvəsi onu bu sənətə gətirib.

### Ako Zandkarimi

His passion for cinema since adolescence brought him to this art.



## Cəsur
## Brave

Portuqaliya / Portugal 2020

Bədii / Fiction 14:16

Evə qayıdan cütlüyü üç naməlum şəxs izləyir. Onlar cütlüyə maşınlarını saxladıqları bağlı dayanacaqdan çıxmağa imkan vermirlər.

A slow burner about a couple on their way home who is harassed by three strangers who won't let them leave the isolated parking lot where they left their car.



### Qonsala Ribeyru

Portuqaliyadan olan yazıçı-rejissor Londonda Kino Məktəbində təhsil alıb. Çəkdiyi qısa filmlər müxtəlif kinofestivallarda nümayiş olunub. Həm kinoda, həm də televiziyada çalışır.

### Gonsalo Ribeiro

The Portuguese writer-director studied at the Film School in London. His short films have been screened at various film festivals. He works in both cinema and television.



## Çingiz
## Cengiz

Türkiyə / Turkey 2020

Bədii / Fiction 14:35

Çingiz işsizdir. Uşaqları tamaşada rol alıblar və evdə məşq edirlər. Bu məşqlər nəticəsində Çingizin davranışı dəyişməyə başlayır.

Cengiz is an unemployed man. His kids have roles in a play and the rehearsals continue at home, Cengiz's behavior begins to change.

### Heydər Taştan

Fəaliyyətinə fotojurnalist kimi başlayıb. Hazırda fotoqrafçılıqla məşğul olur və filmlər çəkir. "Çingiz" ilk qısa filmidir.

### Haydar Tashtan

He began his career as a photojournalist. Now, he works as a photographer and in productions of film. "Cengiz" is his first short film.





## Gecən xeyirə
## Good Night

Qana-Belçika / Ghana-Belgium 2020

Bədii / Fiction 20:00

Qanada günəşli günlərin birində naməlum adam iki uşağa yaxınlaşaraq onları gözlənilməz səyahətə aparır. Bu üç nəfər o qədər yaxşı vaxt keçirir ki, naməlum adam öz ilkin niyyətindən daşınmağa başlayır.

On a sunny day in Ghana, a foreigner approaches two children and takes them on an unexpected trip. The three of them get along so well the foreigner, starts to question his initialintentions.

### Entoni Nti

Qana əsilli belçikalı rejissordur. Onun "Da Yi" filmi Klermon-Ferrane BQFF-da Qran-Priyə layiq görülüb. Hazırda ilk tammetrajlı filmi üzərində çalışır.

### Anthony Nti

Anthony Nti is a Ghanaian-born filmmaker from Belgium. His short film, "Da Yie", won the Grand Prix at the ISFF Clermont Ferrand. Currently, he's working on his first feature-length film.











## Daliya
## Dalia

İslandiya / Iceland 2020

Bədii / Fiction 16:09

Övladıyla yadlaşmış ata və altı yaşlı oğlu atı əziyyətdən qurtararaq, yenidən doğmalaşırlar.

A distant father and his six year old son connect as they put a horse out of its misery.



**Brusi Olason**

İslandiya Universitetində kinoşünaslıq və yazıçılıq üzrə təhsil alıb. Hazırda Nyu-Yorkda Kolumbiya Universitetində rejissorluq sənətinə yiyələnir.

Brusi Olason

He graduated from the University of Iceland where he majored in film studies and minored in creative writing. He currently studies directing at Columbia University in New York.

## Evə qayıdış
## Homecoming

İtaliya / Italy 2020

Bədii / Fiction 17:14

Dəfn agentliyi dul qadının ərini kiçik Molize kəndində dəfn etməlidir. Amma yeli əhali ilə problemlər məsələni qəlizləşdirir.

The funeral agensy is to bury the widow's husband in the small village of Molise. But the problems with the local populations will complicate everything.



**Antonio De Qreqorio**

Antonio De Qreqorio videokliplər çəkir, kino, teatr sahəsində çalışır.

Antonio De Gregorio

Antonio De Gregorio today he works in the world of cinema, theater and video clips.



**Mattia Marano**

Mattia Marano videodizayn üzrə təhsil alıb və bu sahədə uğurlar qazanıb.

Mattia Marano

Mattia Marano studied video design and has been successful in this field.

## Fabiu
## Fabiu

Avstriya / Austria 2020

Bədii / Fiction 30:00

80 yaşlı təqaüdçü Artur xəstə arvadına qulluq edir. Bu işdə ona, əsasən, tibb bacıları kömək edir. Amma işə Fabiu qoşulanda Arturun bütün düzəni pozulur.

80-year-old retiree Arthur been caring for his seriously ill wife, with only female nurses assisting him. When Fabiu enters the picture, his routine is broken.

**Stefen Lentelar**

Ssenari və rejissorluq üzrə təhsil alıb. Onun debüt tammetrajlı sənədli filmi "Sargis-Həyat belədir" filminin premyerası Diagonale Avstriya Kinosu Festivalında baş tutub.

Stefan Langthaler

He studied Writing and Directing. His feature-length film debut as director was the documentary "SARGIS – Such is life", which celebrated it's premiere at the Diagonale - Festival of Austrian Film.



## Fraqmentlər
## Bits

Sloveniya / Slovenia 2020

Bədii / Fiction 15:00

On bir yaşlı Teonun atası yeni yük maşını ilə onlara qonaq gələndə yeniyetmə həyatını bütünlüklə dəyişəcək qərar qəbul edir.

When his father arrives for a visit in a new truck, the eleven-year-old Teo reaches a decision that changes his life forever.

**Aron Horvat Botka**

Lyublyanda Teatr və Kino Akademiyasını bitirib. O, insan talelərindən bəhs edən filmlər çəkməyə üstünlük verir.

Aron Horvath Botka

He finished Academy for Theatre and Film in Ljubljana. He strives to make films that touch important subjects of human destiny.





## Hələki burdayıq
## While We are Here +

Rusiya / Russia 2021

Bədii / Fiction 20:20

Qardaş bacısının xahişiylə valideynlərinin köhnə evinə gəlir. Bacı-qardaş uzun illərdir görüşmürlər və onların arasında çox incikliklər var.

The brother came to his parent's old house because his sister asked him to. There were a lot of hurts between them and they didn't see each other for a long time.



**Anastasiya Maltseva**

İncəsənət və Yaradıcılıq Sənayesi Məktəbinin tələbəsidir. Gənc rejissorun fikrincə, bir ruhu xilas edən kəs, bütün dünyanı xilas edir.

Anastasia Maltseva

The student of School of Arts and Creative Industries. It's my deep conviction that he who saves one soul saves the whole world.



## Xatirə
## Memory

Türkiyə / Turkey 2020

Bədii / Fiction 5:33

Qadın köhnə fotoşəkillərə baxaraq, unudulmuş xatirələri yada salmağa çalışır. O, yaddaşının dərinliklərinə baş vurduqca keçmişi daha da qarışır.

A woman tries to remember her forgotten memories by going through old photographs. As she goes deep into her memories, she gets even more confused about her past.



**Elif Turan**

Gənc rejissor həm ssenarist, həm də rejissor kimi qısa filmlər lentə alır. Hazırda Bahçeşehir Universitetində kinematoqrafiya üzrə magistr pilləsində təhsil alır.

Elif Turan

Young director she is also making independent short films as a writer, director. She is currently doing her MA in Film Studies at Bahcheshehir University.



## Xəbərlər
## The News

Albaniya / Albania 2020

Bədii / Fiction 23:00

Təzəcə ərə gedən qadın qohumları ilə yaşayır. Bir gün o, meyit tapır və kiçik şəhərcikdə hamı yerli televiziyada çıxış etmək üçün mübarizəyə başlayır.

A newly married woman lives with her in-laws. One day he discovers a corpse and the whole small town faces in a battle to get coverage on national television.

**Lorin Terezi**

Albaniyalı yazıçı öz ölkəsində, əsasən, teatr rejissoru kimi tanınır. “Xəbərlər” onun ikinci qısa filmidir.

Lorin Terezi

Albanian author, mostly known in his country as a Theater Director. “The News” is his second short film.





## Yayın ən uzun gecəsi
## The Longest Night of the Summer

Macarıstan / Hungary 2021

Bədii / Fiction 24:00

Qoca kişi ölən arvadının xatirələriylə köhnə evində yaşayır. Qızı və nəvəsi gələrək, onu bu evdən çıxarıb, öz evlərinə aparmaq istəyirlər.

An old man is living with the memory of his deceased wife in their old house. His daughter and granddaughter come to move him out and want him to live with them instead.

**Leyla Jordi**

Suriyalı-macar rejissor Budapeştdə Teatr və Kino Universitetini bitirib. O, öz filmlərində magik realizm fonunda müasir gündə yadlaşmadan və tənhalıqdan bəhs etməyi sevir.

Leila Jordi

I am a syrian-hungarian film director, graduated in 2020 at the University of Theatre and Film Arts, Budapest. In films she like to tell tales of modern day alienation and loneliness with a touch of magical realism.





## Ku-ku
## Coo-Coo

Rusiya / Russia 2021

Bədii / Fiction 19:10

Gənc bioloq Daşa namizədlik dissertasiyasını müdafiə etməyə hazırlaşır. Anası ondan hər axşam dua etməyi tələb edir. Daşa öz istəyilə, başqalarının tələbləri arasında qalıb.

Dasha, a young biologist, prepares to defend her Ph.D. Her mother asks him to pray every night. Dasha suffers from what she wants and what others are pushing her to.



**Svetlana Belorusova**
Gənc rejissor ixtisasca antropoloqdur. Bu sahə üzrə namizdlik dissertasiyası müdafiə edib. Kino sənətinə isə Sankt-Peterburq Yeni Kino Məktəbində yiyələnib.

Svetlana Belorussova
A young director by profession, an anthropologist. She defended PhD thesis in this area. He mastered the art of cinema at the St. Petersburg School of New Cinema.



## Qayıq və çay
## The Boat and The River

Braziliya / Brazil 2020

Bədii / Fiction 17:12

Dindar qadın Vera, Manausa limanında qayığa qulluq edir. O, qayığı necə idarə etməsiylə və həyatını necə yaşamasıyla qane olmayan bacısı Josi ilə dil tapmalıdır.

Vera is a religious woman who takes care of a boat in the port of Manaus. She needs to deal with her sister Josi with whom she disagrees about how to handle the boat and how to live life.



**Bernardo Ale Abinader**
Ssenarist və rejissordur. “Qayıq və çay” filmindən başqa o, həmçinin “Bədheybətlər”, “Amin”, “Sızma” filmlərinin müəllifidir.

Bernardo Ale Abinader
He is director and screenwriter. In addition to “The Boat and The River” he has directed “Monsters”, “Amen”, “The Leaking Tap”.



## Məryəm haqqında bilmədiklərimiz
## What We Don’t Know About Mariam

Misir / Egypt 2021

Bədii / Fiction 25:00

Məryəm qarnında ağrılar və qanaxma ilə dövlət xəstəxanasına gedir. Tibbi müayinədən sonra Məryəmlə əri arasındakı münasibətlər kəskinləşir.

Mariam goes to a public hospital with bleeding and suffering from a severe pain in her abdomen. After the medical examination things escalate between Mariam and her husband.

**Murad Mustafa**
2010-cu ildən kino sahəsində çalışır. Onun “Henet Ward” ilk qısa filminin premyerası Klermon-Ferrane Beynəlxalq Qısa Filmlər Festivalında baş tutub.



Morad Mostafa
He works in the film industry since 2010. He directed and wrote his first short film “Henet Ward” that had its world premiere at “Clermont-Ferrand International Short Film Festival” in the the International Competition.



## O biri yanaq
## The Other Cheek

Misir / Egypt 2020

Bədii / Fiction 10:49

İtin qızına vəhşicəsinə hücumundan sonra ata öyrənir ki, keçmiş arvadı qızını müalicə almaq üçün xaricə aparmaq istəyir. Bunun qarşısını ala bilməyən ata dərdini cinayətkara danışır.

Following a vicious dog attack on his daughter, a frail, divorced father finds out his ex-wife is planning to travel abroad with their daughter to seek better medical care. Unable to stop it, he takes out his frustration on the perpetrator.

**Sandro Kanan**
Parisdə EICAR kino məktəbində incəsənət və rejissorluq üzrə magistr dərəcəsi alıb. Bir neçə sənədli və bədii qısametrajlı filmin müəllifidir.



Sandro Canaan
He moved to Paris where he finished his Masters of Fine Arts in Directing Film at EICAR film school. He is the author of several short documentaries and fiction films.



## Sürü
## Flock

Belçika / Belgium 2021

Bədii / Fiction 17:00

**Ziyafətdə uşaqlarının mübahisə etməsi iki bacı arasındakı çoxdankı münaqişəni yenidən canlandırır. Bu hadisə iki bacının həm idbar, həm də insani tərəflərini üzə çıxarır.**

At a spring party, a conflict between their children forces two sisters into an old rivalry. The have both ugliest and most human traits are revealed.



### Kato Kettyu

Gent şəhərində Kral İncəsənət Akademiyasında rejissorluğu öyrənir. Burada rejissorun öz şəxsi istiqamətini tapmağa xüsusi diqqət ayrılır.

### Cato Catteeuw

She studies Directing at the Royal Academy of Fine Arts of Gent, an education that focuses strongly on the development of a filmmaker's personal language.



## Təzə süd
## Fresh Milk

Türkiyə / Turkey 2020

Bədii / Fiction 02:39

**Əminə və anası gündəlik tələbatlarını yeganə inəklərinin hesabına ödəyirlər. Amma dünyada hər şey o qədər ağır başa gəlir ki, işlər istədiyin kimi getmir.**

Emine and her mother try to milk their daily milk needs from their only cow. However, conditions in the world have become so difficult that nothing goes as desired.



### Ömər Fərux Gülər

İstanbul Universitetinin Rabitə, Radio, Televiziya və Kino fakültəsini bitirib. Çəkdiyi beş qısa filmi beynəlxalq kinofestivallarda iştirak edib.

### Omer Farux Guler

He graduated The Communication Faculty, Radio Television and Cinema Department in Istanbul University. He has five short movies which are shown some festivals around world.






Hazırladığımız hər bir şərab şüşəsi təkrarolunmaz buket, individuallıq, üslub və xarakteri özündə birləşdirir. Hər bir udum ağızda möhtəşəm dad və yeni hiss yaradır. Öz plantasiyalarımızda yetişdirilən, isti günəş şüalarını udan qiymətli üzüm sortları, qədim şərabçılıq ənənələrinin yüksək texnoloji avadanlıqlar ilə mükəmməl kombinasiyası – yüksək keyfiyyətli içkilərin sirri bunda gizlidir.

HILLSIDE © 2021



## 4000 səs
## 4000 voices

İraq / Iraq 2020

Sənədli / Documentary 22:26

70 yaşlı qadın Umm Assi müharibəyə getmiş və geri qayıtmamış oğlunun yolunu gözləyir. Oğlu itkin düşəndən bir il sonra qadının gözünə oğlunu qaçırdan canavar görünür...

Umm Assi a 70-years-old woman waiting for her son who left for war and never came back. After a year has passed since his disappearance in the war, in a vision woman saw a wolf kidnapping her son…



**Kuiş Səccad**

Bağdadda İraq Müstəqil Kino Mərkəzində (IIFC) təhsil alıb. Bir sıra rejissorların filmlərində çalışıb. Hazırda Parisdə yaşayır və "Tanrının üzü" ikinci filmini lentə alıb.

Kwaish Sajjad

He studied the cinema at the Iraqi Independent Film Center in Baghdad (IIFC) and has worked with many directors through their movies. Now living in Paris, he filmed his second film "God's Face".



## Cənnət
## Paradise

İspaniya / Spain 2020

Sənədli / Documentary 20:00

Əhməd və Taxa - ata və oğul uzun müddət yad ölkədə xəstəxana otağında yaşamalı olurlar. Ata bütün gününü xəstə oğlu ilə keçirir və onların arasında qırılmaz bağ yaranır.

Ahmed and Taha, father and son, are forced to spend long months in a small room of a children's hospital. A father spends all day with his sick son and a touching bond forms between them.



**Meteo Kabeza**

Rejissorluq, ssenaristlik və montaj üzrə təhsil alıb. Əsasən, real həyatdan və etnoqrafiyadan bəhs edən kinematoqrafa maraq göstərir. Filmləri bir sıra festivallarda mükafatlara layiq görülüb.

Mateo Cabeza

He has a degree in direction, script writing and film editing. He is mainly interested in cinema, which deals with real life and ethnography. His films have won awards at many festivals.



## Əbədi bahar
## The Eternal Springtime

Vyetnam / Vietnam 2021

Sənədli / Documentary 25:00

Ana və oğul yox olmaq təhlükəsi ilə üzləşən landşaftda güc toplamaq üçün doğma mağaralarına yollanırlar. Onlar kiçik sığınacaqlarında oturarkən çılpaq bədənlərindən sevgi enerjisi yayılır.

In a landscape on the brink of extinction, a son and mother trek into a native cave to be revitalized. By quietly sitting together in their humble shelter, a loving energy is shared through these two human beings' naked bodies.

**Viyet Vu**

"Qarışqa-adam", "Sevgi aktı" filmləri nüfuzlu kinofestivallarda iştirak edib. "Əbədi bahar" filmi sayca üçüncü filmidir.

Viet Vu

"Ant-Man", "An Act of Affection" films have participated in prestigious film festivals. "The Eternal Springtime" is his third film.





## Mərkəzi simmetriya
## Point Symmetry

Rusiya / Russia 2020

Sənədli / Documentary 16:04

İki orta yaşlı bostonlu qadının videoportreti. Onların valideynləri İkinci Dünya Müharibəsinin zidd tərəflərini yaşayıblar. Biri alman əsgəri, digəri isə soyqırımın şahidi olmuş yəhudi.

A video portrait of two Boston-based middle-aged women, whose parents were experiencing the extreme opposites of Worl War II. One is a German soldier, the other is a Jew who witnessed the genocide.

**Anna Panova**

Rusiyalı jurnalist, rejissor və prodüser hazırda Nyu-Yorkda fəaliyyət göstərir. Bir neçə kino və teatr layihəsinin müəllifidir. Shortie Film Festivalının prodüseri kimi çıxış edib.

Anna Panova

The Russian journalist, director and producer currently works in New York. He is the author of several film and theater projects. She fully produced film festival called Shortie film festival.





## Ruhun ruhu
## Anima Animae Animam

İspaniya / Spain 2021

Sənədli / Documentary 28:00

**Peşələrindən irəli gələrək, qəbiristanlıqlarda dəfn edilməyən kukla ustaları ruhsuz sayılırdılar. Onlar öz ruhlarını heç vaxt ruhu olmayan vücudlarla bölüşürdülər.**

To the puppeteers, who due to their profession, were not allowed to be buried in cemeteries, as they were considered soulless. They sharing their soul with beings who never had it.



**Hoze (Putça) Puçeyd Martinez, Culieta Gəzrok**

Culieta və Putça əsasən, teatr rejissorluğu ilə məşğul olublar. “Ruhun ruhu” onların öz kinematoqrafik üslublarının axtarışı istiqamətində ilk təcrübələridir.

José (Putxa) Puchades Martínez, Julieta Gasroc

Julieta and Putxa were mainly theater directors. “Anima Animae Animam” is their first official experience in their search for a own cinematographic style.



# NAR MÖVSÜMÜ



**Hər şey yaxşı olacaq!**

**DUA**

İndiki dünyada ciddi sənət festivallarının əhəmiyyətini vurğulamaq həyatın əhəmiyyətini vurğulamaq qədər absurddur. Sənət festivalı bir ölkənin yaşam gücü deməkdir, əgər haqqında danışdığın ölkədə sənət festivalı keçirilirsə, bu fakt ölkə haqda çox şeyi deyir. Və həm də bir şeyi deyir: Hər şey yaxşı olacaq! Bəlkə də sənət festivalları uzaq-uzaq diyarlarda bir-birini tanımayan insanlara bu üç kəlməni dua kimi ötürmək üçündür.

Sənət festivallarının fərd üçün, ölkə üçün, dünya üçün belə bir xilasedici gücü var. Xüsusən, bu festival kino kimi, teatr kimi durğunlaşmış, adamları eyni suallarla və eyni cavablarla qocalmış bir camedə keçirilirsə, əməlli-başlı bayramdır. Hər şey bir yana, gerçək sənət festivalı insanlara ümid və sevgi ötürür. Bu ümid - sevgi-dad söhbətini də unutmayaq, ona bir də qayıdacağıq.

**FESTİVAL**

Bu gün doqquzuncu dəfə beynəlxalq qısa filmlər festivalı keçirən dostumuz Fehruz Şamıyev üçünsə hər şey elə o zaman başlayıb. Cəbrayılın bir kəndində yay klubunda baxdığı Fellininin “Yol” filmi ilə. İşə bax, ucqar bir kənd klubunda kolxozçuya dünya kinosunun şedevrlərindən birini təqdim edən bir sistem indi yoxdur, amma bu dadı unutmayan insanlar var - özünü bir çınqıl qədər əhəmiyyətsiz sanan Celsominalara, Zampanolara ümidin, sevginin dadını ötürməkdə israrlıdırlar.

İndi sizə təqdim edəcəyim Festivalın komandasından danışıram. Daha doğrusu, o komandanın bir hissəsindən. Çünki Festivaldan yolu keçən gənclərin hamısından yazmaq mümkün deyil, məqsədimiz də başqadır: festival həyəcanını sizinlə bölüşmək…

Noyabrın 11-i. “Sinema” Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi Beynəlxalq Qısa Filmlər Festivalının başlanmasına lap az qalıb. Festivalın ofisində hərbi dildə desək, baş qərargahında hər kəs işin həyəcanını, gərginliyini yaşayarkən, reportaj həvəsinə düşürəm. “Ştab”da baş o qədər qarışıqdır ki, reportaj etmək niyyətimi elə gizli də saxlayıram. Evdən oğurluq edən adam kimi (festivalın təşkilati heyətindən sayılıram) gah oküncə, gah bu küncə çəkilib, rakurs seçirəm, arabir işə başı qarışan uşaqlara provokativ suallar verirəm. Əslində az da olsa, komandada olduğum üçün öz iştirakıma dair xeyli məsələni bilirəm. Və üstəlik 2004-cü ildən bəri, bu doqquz ilin hər biri gözümün önündədir: Ta ki, köhnə Kino İttifaqının Hökumət evində yerləşən köhnə zalından keçirilən ilk festivaldan tutmuş bu günlərdə izlədiyim filmlərədək.

Bu il Festival öz üzərinə daha bir kino hadisəsini götürüb: İran rejissoru Cəfər Pənahinin ən son filmi, bu il Kann kinofestivalında ən yaxşı ssenari mükafatında qalib olmuş “Üç üz” filmini festival çərçivəsində nümayişini təşkil etməyi.

**“QIZIL NAR”**

Bir də ən vacibi “ Qızıl Nar”... Festivalın əsas mükafatıdır. Bir simvol olaraq məhz bunun seçilməsindən xeyli məmnunam. Ona görə yox ki, başqa ölkələrdə “qızıl portağal” ya “qızıl ərik” var. Çünki, nar mifologiyamızda xüsusilə adı hallanan bir meyvədir. Sirr simvolu kimi nağıllarda, sevgi və ya həyat simvolu kimi rəsmlərdə, xalçalarda ümumiyyətlə, bir metafora kimi şifahi və yazılı düşüncəmizdə özünə yer etmiş bir meyvədir. Daha düzü, nar bir meyvədən artıqdır. Estetikliyi də öz yerində. O zaman estetik təfəkkürümüzdə bunca kodlaşmış nar niyə milli kinofestivalın simvolu olmasın ki? Festival da elə bunu deyir və nar mövsümündə al qırmızı proqram çıxarır qarşımıza: aldım bir dənə, açdım yüz dən-ə...

**Aliyə Dadaşova**
**2018**




## Fasiləsiz
## Non-stop

İran / Iran 2020

Animasiya / Animation 1:40

Xəbərlər və zamanın sürətli axını gündəlik həyatımıza təsir edir.

Effect of news and fast passing time in every day life...



**Fərzanə Qobadi**

Tehran İncəsənət Universitetində animasiya üzrə təhsil alıb. Çəkdiyi animasiya filmləri beynəlxalq festivallarda iştirak edib.

Farzaneh Ghobadi

Master of directing animation from Tehran Art University. She made several short animation that has been in many internationals festival.



## Habub
## Haboob

İran / Iran 2020

Animasiya / Animation 9:00

Kişi və qızı təbiətlə hüzur və harmoniyada yaşamağa alışıblar. Amma bəzi çətinliklər onların bu füsunkar həyatına mane olur.

A man and his daughter are used to living in harmony and peace with nature, but some disruptions change their lovely little life.



**Mahsa Samani**

Yaradıcılığa rəsm çəkmək və animasiyalı qrafikin dizaynı ilə başlayıb. "Toz adam" ilk animasiya işi beynəlxalq festivallarda mükafatlarla təltif olunub.

Mahsa Samani

She started artistic journey in drawing and motion graphics design. The first animated work "Dust Man" was awarded at international festivals.



## Kəpənəyin skeleti
## Skeleton of a Moth

Böyük Britaniya / United Kingdom 2021

Animasiya / Animation 8:14

Yeniyetmə qızlar emosional çətinliklər və sosial təzyiqlərlərlə üzləşirlər. Müxtəlif qızlar bədənləriylə, psixi sağlamlıqlarıyla və seksual zorakılıqla bağlı problemlərini danışırlar.

The teenage girls face emotional difficulties and social pressures that affect. of today. The multiple girls as they talk through problems surrounding body image, mental health, and sexual assault.

**Emma Key Smit**



Mançester İncəsənət Məktəbində ilüstrasiyalı animasiya üzrə təhsil alıb. Əsasən, rəsm elementlərindən istifadə edərək, 2D animasiyalar çəkir.

Emma Kay Smith

She an alumnus of Manchester School of Art, Illustration with Animation. She makes 2D animations, often bringing in hand-drawn elements.




## Orneliya küləkdə
## Ornelia in the Wind

İtaliya / Italy 2020

Animasiya / Animation 3:45

Karl adlı sarı şar digər şarlar kimi satılmaq istəmir. O, azad olmaq istəyir. Karlın gözünə gülümsəyən balaca bir qız sataşır. Qız əlini ona uzatsa da külək onlara mane olur...

A yellow balloon named Carl does not want to be sold like other balloons. He wants to be free. He meets the eyes of a little girl who was smiling at him, she tries to reach him but a gust of wind separates them.

**Karlo Melluzo, Antonio Cenevizi**



Karlo Melluzo Neapolda böyüyüb. Məktəbi bitirdikdən sonra işləmək üçün İngiltərəyə köçüb. Onun uşaqlıqdan yazıçılığa və animasiya aləminə güclü marağı olub.

Carlo Melluso, Antonio Genovese

Carlo Melluso grew up in Naples. After graduation school he decided to move to England to work. Since he was a child he always had a strong passion for writing and especially towards the world of animation.



## Pərdəarxası
## Behind the Scene

Tayvan (ÇXR) / Taiwan (ROC) 2021

Animasiya / Animation 13:29

**Məşhur yazıçı təsadüfən evinin divarındakı dəlikdən qonşuluqda yaşayan ailə cütlüyünün zorakılıq həyatını izləyir. Bundan ilhamlanan yazıçı ailə zorakılığı haqqında roman yazmağa başlayır.**

Writer because of an accidental coincidence, began to peek the domestic violence life of the couple next door through the hole in his room on the wall. The writer gained inspiration and began to write a novel about domestic violence.



**Vu Yen Şenq**

Tayçjunda böyüyən gənc rejissor sonradan Taynana köçüb. Hazırda Taynan şəhərində animasiya və kino sənəti üzrə təhsil alır.

Wu Yen Sheng

The young director, who grew up in Taichung, later moved to Tainan. He is currently studying animation and cinema in Tainan.



## Səsdə
## Voice on

Tayvan (ÇXR) / Taiwan (ROC) 2021

Animasiya / Animation 5:35

**Anasının ümid bəslədiyi qız musiqi ilə məşğul olmağında bir məna tapmadığı üçün əziyyət çəkir. Dodaq qarmonunda çalan qoca ilə rastlaşdıqdan sonra qız vəcdə gəlir və qəlbinin səsinə qulaq asır.**

The girl who is bound by her mother's expectation and feels pain because she can't find the meaning of playing music. After meeting an old man who performed harmonica, she was inspired and began to face up to her heart.



**Lonq Huan-Rui**

Çaoyan Texniki Universitetində Vizual rabitə dizaynı fakültəsində təhsil alır. "Səsdə" gənc rejissorun ilk animasiya filmidir.

Long Huan-Rui

He is now a senior in the department of visual communication design of Chaoyang University of Technology. "Voice on" is his first official work.



**Liu Zi-Uei**

Çaoyan Texniki Universitetində Vizual rabitə dizaynı fakültəsində təhsil alır.

Liu Zi-Wei

Studying in the department of visual communication design of Chaoyang University of Technology.



## Unutduqlarımız
## Those We are Forgetting

Braziliya / Brazil 2021

Animasiya / Animation 10:00

**Redjinaldo anasına baş çəkərkən, köhnə fotolar vasitəsilə unutmağa başladığı və heç vaxt görmədiyi ailə üzvləriylə əlaqə tapmağa çalışır.**

On a visit to his mother Reginaldo weaves ties through old photographs, trying to create connections with family members he has never met and with those whose memories are fading.



**R.B Lima**

RB Lima Paraiba Federal Universitetinin kino və audiovizual məhsullar fakültəsini bitirib və hazırda həmin universitetdə çalışır.

R.B Lima

R.B. Lima holds a degree in Cinema and Audiovisual from the Federal University of Paraíba, in addition to being a servant of this same institution.



**Rebeka Linres**

Rebeka Linres həm rəqəmsal animasiya, həm də kadrlı animasiya ilə işləyir, həmçinin dizayn və redaktorluqla da məşğul olur.

Rebeca Linhares

Rebeca Linhares works with digital animation and stop motion and also works in the area of design and editorial.

# *Yerli* müsabiqə



## 28 May

Azərbaycan 2021

Bədii 05:00

Film Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda başlanan mübarizədən və üçrəngli bayrağımızın tarixində ən şərəfli, yaddaqalan günlərdən biri - Şərqdə və Türk-islam dünyasında ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından bəhs edir.



**Elvin Əhmədoğlu**

ADMİU-nu bitirib. Operator, rejissor-operator kimi çalışıb. "Yaddaş" filmi IX "Start" Beynəlxalq Qısa Filmlər Festivalında ən yaxşı operator işinə görə mükafata layiq görülüb.



## Artıq

Azərbaycan 2021

Bədii 25:38

Heç bir işdə bəxti gətirməyən gənc kompüter proqramçısı bir gecə sevdiyi qızın gözü qarşısında bir dəstə adam tərəfindən təhqir edilərək, döyülür. Bundan sonra o, tamamilə həyatını dəyişmək qərarına gəlir və qisas almaq onun əsas məqsədinə çevrilir.



**Fərid Hüseynov**

ADMİU-da kinorejissorluq ixtisası üzrə təhsil alıb. Təhsil aldığı dövrdə bir neçə qısa film lentə alıb. "Artıq" filmi diplom işidir.



## Arzu

Azərbaycan / Türkiyə 2020

Bədii 06:00

Kiçik qız şarının dalınca düşərək, o hara uçursa ora gedir. Amma təhlükə yaxındadır. Düşmən əsgərləri Xocalıya girənə qədər qızcığaz anası ilə birgə gizlənməlidir.

**Rüfət Əlizadə**

Akdeniz Universitetinin Rabitə fakültəsinin Radio, Televiziya və Kino bölümündə təhsil alıb. Daha sonra təhsilini Akdeniz Universitetinin Gözəl Sənətlər İnstitutunda davam etdirib.





## F63.2

Azərbaycan 2021

Bədii 11:03

Əllərinin oğurluq etməsinə mane ola bilməyən kleptomanyak qəhrəman, psixoloqun qəbuluna gəlir. Öz psixoloji problemini dərk etmədiyi üçün bu işdə əllərini günahlandırır. Oğurladığı əşyalar ona rahatlıq vermir.

**Müşfiq Mirzə**

Üç qısametrajlı filmin müəllifidir. Çəkdiyi filmlər yerli və beynəlxalq festivallarda iştirak edib.





## Satılır

Azərbaycan 2021

Bədii 08:25

Gənc qız sevgilisindən ayrılıb və xatirələr ona əzab verir. O, ən yaxşı illərini birgə keçirdikləri mənzildə qala bilmir. Olanları unutmaq üçün evi satmaq qərarına gəlir.



**Aliyə Mollayeva**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kinooperator ixtisası üzrə təhsil alır. Eyni zamanda videoqraf və fotoqraf kimi fəaliyyət göstərir.



## Kömək edin

Azərbaycan 2020

Bədii 10:00

Gənc oğlan yoldaşları ilə restoranda otursa da, fikri başqa yerdədir. Yoldaşlarının söhbətləri onu maraqlandırmır. O, yoldaşlarını tərk edib gedəndə qarşısına ondan kömək istəyən insanlar çıxır...



**Rüfət Hüseynov**

Kino sənətinə müstəqil şəkildə yiyələnib. Rejissor, operator və montajçı kimi çalışır. Dörd qısametrajlı bədii filmin, iki sosial çarxın müəllifidir.



## Qaldırın yelkənləri

Azərbaycan 2020

Bədii 14:00

Orta yaşlı kişi Vətən müharibəsində erməni terroru nəticəsində ailəsini itirib. O, bu itkidən bərk sarsılıb və ailəsinin yoxluğunu qəbul edə bilmir. Doğmaları olmadan necə yaşayacağını bilmir.

**Səbinə Haqverdiyeva**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kinorejissorluq fakultəsində dərs alıb. Bir neçə qısa filmin və sosial çarxın müəllifidir. Eyni zamanda pyes də yazır.





## Səssiz üsyanlar

Azərbaycan 2021

Bədii 05:45

Həyatının axınını dəyişdirmək istəyən Vüsal işsiz olduğundan çətin vəziyyətdədir. Üzləşdiyi bu çətinliklə Allaha sığınmağa davam etsə də, ailəsi və sevgilisinin laqeydliyi onun çöküşünə səbəb olur.

**Tural Hacı**

Türkiyənin Dokuz Eylül Universitetinin İncəsənət Fakültəsinin Kino və Televiziya şöbəsində təhsil alıb. Təhsilini bitirdikdən sonra sosial mövzuları əhatə edən sənədli filmlər və sosial çarxlar çəkib.





## Bir ovuc yumor və cansıxıcı kədər

Azərbaycan 2021

Sənədli 17:14

2020-ci il gündəlik həyatın kakofoniyasını susmağa məcbur etdi. Evdə oturarkən biz normal həyata qayıtmağımızı gözləyirdik. Sən demə, il müxtəlif hadisələrlə doluymuş.



**Lalə Əliyeva**

Gənc sənədli film rejissoru fəlaiyyətinə jurnalist kimi başlayıb. Goldsmiths Universitetində vizual antropologiya üzrə təhsil alıb.




## Mən Gəncəyəm

Azərbaycan 2021

Sənədli 33:37

Ermənistan silahlı qüvvələri Gəncə şəhərinə ballistik raket hücumları edir. Aktyor ilk dəfə Gəncəyə gedir gördüklərini qeyd edir və orada yaşananları real şəkildə göstərir.



**Ramil Ağasıyev**

Bədii və sənədli filmlər rejissoru Ramil Ağasıyev hazırda yerli televiziya kanalında çalışır. “Arzuların ardınca” tametrajlı filmin müəllifidir.



## Mənim ailəm

Azərbaycan 2021

Sənədli 6:50

Məcburi köçkün Aytən Yusifovanın atası gözləri önündə öldürülüb. Aldığı travmalara baxmayaraq qadın yaşamağa özündə güc tapır, həyatını təmin etmək üçün şirniyyatlar bişirib satır. İki oğlu ilə yaşayan ana bütün gücü ilə övladlarını şəxsiyyət kimi böyütməyə çalışır.

**Afaq Yusifli**

Bakı Slavyan Universitetini bitirib. Bakı Film İnstitutunda rejissorluq kursu keçib, hazırda Azərbaycan Kinematoqrafçılar İttifaqının nəznindəki Kino məktəbində təhsil alır.





## Papanin

Azərbaycan 2021

Sənədli 19:00

Papanin sakinləri 10 ildir evlərinin söküləcəyini və müvafiq təzminat alacaqlarını gözləyirlər. Papanində artıq həyatın axışı hiss edilmir, hamı söküntü xəbərini gözləyir. Bu gözləntidə isə zaman öz sürətiylə davam edir.

**Türkan Huseynova**

ADMİU-nu bitirib. 10 ildən çoxdur küçə fotoqrafıyası ilə məşğuldur. Bir neçə qısametrajlı filmin müəllifidir.






## Səmada qalan gənclik

Azərbaycan 2020

Sənədli 23:00

Zemfira Əliyeva-Məmmədəliyeva Azərbaycan mülki aviasiyasında Azərbaycanca elan verən ilk azərbaycanlı təyyarə bələdçisi olub. Hazırda o, təqaüddə olsa da işlədiyi illərin xatirəsi ilə yaşayır.



**Babək Abbaszadə**

ADMİU-da təhsil alıb. "Aranfilm" Yaradıcılıq Mərkəzində quruluşçu rejissor kimi çalışıb. Hazırda fəaliyyətini Azərbaycan Dövlət Film Fondunda davam etdirir.






# KİNONUN GÜZGÜSÜ FESTİVALLAR

Bakı həmişə saysız hesabsız yerli və əcnəbi müəlliflərin kinoçəkiliş meydanı olmaqla bərabər, həm də kinofestivalların keçirildiyi məkan olub. Şəhərimiz beynəlxalq səviyyəli kinoforumlara sovet dönəmindən ev sahibliyi etməyə başlayıb.

Keçmiş Sovet İttifaqında 1958-ci ildən 1988-ci ilə qədər Ümumittifaq kinofestival təşkil edilib. Birinci Ümumiittifaq kinofestival 1958-ci ildə təbii ki, Moskvada, qalanları isə İttifaqın digər şəhərlərində baş tutub. Bakı isə bu mötəbər festivala iki dəfə - 1974 və 1988-ci ildə ev sahibliyi edib.

1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq kinofestival sovet kino tarixində iki güclü filmin rəqabətə ilə yadda qalır. Bunlar Leonid Bıkovun "Döyüşə yalnız qocalar gedir" və Vasili Şukşinin "Qırmızı Başınağacı" filmləri idi. Münsiflər heyətinin uzun sürən mübahisəsindən sonra "Qırmızı Başınağacı" kinofestivalın Qran-prisini alır, Leonid Bıkov isə ən yaxşı bədii film və ən yaxşı aktyor oyununa görə birinci mükafata layiq görülür.

Festivalın növbəti dəfə Bakıda keçirilməsi 1988-ci ilə təsadüf edir. Sovet filmlərinin sayca XXI Ümumittifaq kinofestivalı həmin il öz işinə xitam verir.

Bakıda keçirilən digər ittifaq səviyyəli festival 1966-cı ildə təsis edilmiş Televiziya filmlərinin Ümumittifaq Festivalı olub. VIII festival Bakıda 1979-cu ildə baş tutub.

Sovet İttifaqı dağıldıqdan sonra bütün ittifaq ölkələri kimi Azərbaycanda da kino sahəsində durğunluq yaranır. Amma çox keçmir ki, Bakıda müstəqillik dövrünün ilk beynəlxalq kino festivalları təsis edilir.

Bunlardan birincisi 1996-cı ildə "Azərbaycanda Dünya Kinosunun 100 illiyi Fondu" tərəfindən təsis edilən "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalı idi.

Müstəqillik dövründə təsis edilən növbəti festivallardan biri də yaşı 35-ə çatmamış gənc rejissorların iştirak etdiyi "Beynəlxalq Audiovizual Festival" idi. Azərbaycan Kinorejissorlar Gildiyasının keçirdiyi bu festivala dünyanın müxtəlif ölkələrindən audiovizual əsərlər daxil edilirdi.

Hazırda hər iki kinofestival fəaliyyətini dayandırsa da onlar ölkəmizin mədəni həyatında əhəmiyyətli rol oynamış, gələcək festivalların yaranmasına böyük təkan vermişlər.

Bu gün Bakıda kinematoqrafiya sahəsində davamlı olaraq keçirilən üç beynəlxalq festival fəaliyyət göstərir. Bunlar Bakı Beynəlxalq Qısa Filmlər Festivalı, müxtəlif ölkələrin qabaqcıl sənədli filmlərini təqdim edən DokuBaku Beynəlxalq Sənədli Film Festivalı, uşaqlar və böyüklər üçün çəkilmiş animasiya filmlərini nümayiş edən ANİMAFİLM Beynəlxalq Animasiya Festivalıdır.

2004-cü ildə "Sinema" Gənc Kinematoqrafçılar Mərkəzi tərəfindən təsis edilən Bakı Beynəlxalq Qısa Filmlər Festivalı ilk dövrdə "START" adı altında keçirilirdi. 2019-cu ildə kinoforum "Bakı" adı ilə işinə davam etməyə başladı.

Festivalın münsiflər kürsüsündə əyləşənlər arasında Berlin Kinofestivalının "Qızıl ayı" mükafatçısı Kambuzia Partovi, Kann festivalının "Qızıl palma" mükafatçısı Rezan Yeşilbaş da olub.

Festivallar yerli və xarici kinematoqrafçıların görüş yeridir. Bu sənət bayramları çərçivəsində yaradıcı ünsiyyət atmosferi yaradılır. Kinofestivallar bizi parlaq premyeralar və yeni istedadların kəşfi ilə sevindirir.



## +65

Azərbaycan 2021

Animasiya 01:45

Yaşlı kişi koronavirus pandemiyası ucbatından evdə tək qalıb. Onun küçəyə çıxmaq üçün bir maskası var, onu da külək aparır. O xəyalları ilə evdə baş-başa qalır.



**Sevinc Quliyeva**

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alır. Bir neçə ildir ki, animasiya ilə məşğul olur. İlk işi "Bir arzu tut" cizgi filmidir.



## Evə qayıdış

Azərbaycan 2020

Animasiya 01:00

Uzun illərdir doğma evlərindən-Qarabağdan köçkün düşmüş azərbaycanlılar torpaq həsrətilə yaşayırlar. İndi isə onlar Qarabağa qayıdırlar.



**Ağarəhim İbrahimov**

Gənc rejissor ADMİU-da təhsil alıb. 2017-ci ildə "Harmony of Chaos" animasiya və vizual effektlər studiyasını yaradıb.



## İnilti

Azərbaycan 2021

Animasiya 02:43

Xocalı faciəsi baş verib. Bütün kənd əhalisi erməni qəsbkarları tərəfindən vəhşicəsinə öldürülüb. Ailə üzvlərini itirən yeniyetmə gizləndiyi yerdən çıxdıqda evdə qalmış körpənin də öldürüldüyünü görür.

**Ruslan Kərimov**

Azərbaycan Dövlət Universitetinin məzunudur. Əsasən, 3D animasiyası üzrə ixtisaslaşıb.





## Tıq-tıqla möcüzələr axtarışında - Qobustan

Azərbaycan 2021

Animasiya 07:00

Tıq-tıq öz dostları ilə qədim yaşayış məskənlərimizdən olan Qobustana səyahət edir. Qobustan barədə maraqlı məlumatları balaca izləyicilərə çatdırır. Qəhrəmanların başına qeyri-adi və sirli hadisələr də gəlir. Tıq-tıq özünə yeni dost qazanır.

**Sultan Abbasbəyli**

Cizgi film rejissoru və animatordur. Ona yaxın animasiya filminin müəllifidir. "Tıq-tıqla möcüzələr axtarışında" silsilə cizgi filmini "Azanfilm" animasiya studiyasında çəkib.





## Ağ ölüm

Azərbaycan 2021

Sosial çarx 03:27

Gənc oğlanın uşaqlıqdan aludə olduğu narkotik maddə həyatını məhv edib. Bir yandan bədəni narkotik tələb edir, digər yandan düşdüyü vəziyyəti vicdanı və qüruru qəbul etmir. Çıxış yolunu ölümdə görən qəhrəman son anda fikrindən daşınır...



**Şəfa Həsənova**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alır. Hazırda narkomaniya ilə bağlı serial üzərində çalışır.



## Korona incəsənətə yardım

Azərbaycan / Almaniya 2021

Sosial çarx 00:49

Korona pandemiyasından zərər çəkmiş incəsənət xadimlərinə kömək tələb olunur. Çünki sənət adamları arasında dövlət yardımını hər kəs ala bilmir. Videoçarx qısa müddət ərzində sosial şəbəkələrdə xeyli izləyici tapır və sənətçilərə yardım olunur.



**Cavid Səmədov**

Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasını bitirib. Daha sonra təhsilini İtaliyanın Opera sənəti Akademiyasında, Renato Tebaldi və Mario Del Monako adına Akademiyada davam etdirib.



## Nəsillər

Azərbaycan 2021

Sosial çarx 03:23

Fərqli yaş qrupuna mənsub insanların xarakteri də müxtəlifdir. Onlar tamam başqa-başqa dünyaların insanlarıdır. Birinin istəyi digərinin istəkləriylə uyğun gəlmir.

**Ülviyyə Əhmədova**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetininin Rejissorluq fakültəsini bitirib. Hal-hazırda Rüstəm İbrahimbəyovun rəhbərliyi ilə Kino məktəbinin rejissorluq kursunda təhsil alır.





## Qarabağ - hər kəsin ortaq arzusu

Azərbaycan 2020

Sosial çarx 01:00

Fiziki məhdudiyyətli aktyorlar ən yaxın zamanda ölkəmizin işğaldan azad olunan bölgələrinə gedərək, arzularını reallaşdırmaq istəyirlər. Qarabağ sevgisinin və həsrətinin xalqımızın hər bir nümayəndəsində olduğu və arzularımız fərqli olsa da, bu arzuların ünvanının bir olduğu vurğulanır.

**Nicat Qulam**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kino-televiziya sənətləri kafedrasının tələbəsidir. Bir çox sosial çarxlara və audiovizual layihələrə müəlliflik edib. Vətən müharibəsi zamanı “Mən getməliyəm” adlı sənədli-bədii film çəkib.





## İntihara son

Azərbaycan 2021

Sosial çarx 02:08

Sosial çarxda son illər Azərbaycanda baş verən intihar halları əksini tapıb. İntiharlara qarşı əks təbliğat aparılmalıdı. Çıxış yolu insanın özüdü. İntihar çarə deyil!



### Cavad Nur

Dövlət Pantomima Teatrının aktyorudur. "To be not To be", "Bir qutu mərmi", "İkimizin hekayəsi" kimi qısa filmlərin müəllifidir.



## Vətən Bizik

Azərbaycan 2021

Sosial çarx 05:50

Vətənə sevgi fərqli peşə sahiblərinin ümumiləşdirilmiş obrazında göstərilir. Fotoqraf müxtəlif vaxtlarda çəkdiyi fərqli insanların şəkillərinə baxanda anlayır ki, insanlar Vətənə necə bağlıdırlar. Vətən bizdən başlayır.



### Rəhman Allahverdiyev

ADMİU-nin Kinorejissorluq fakültəsini bitirib. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının üzvü, Rasim Ocaqov təqaüdçüsüdür. "Xocalı 1km", "Stop", "Post" qısametrajlı filmlərin və bir neçə sosial çarxın müəllifidir.



## Vətən sənə əmanət

Azərbaycan 2020

Sosial çarx 02:47

II Qarabag müharibəsində Zəfər əldə olunub. Hər kəs bir nəfər kimi ön cəbhədə vuruşmağa hazırdır.

### Masər Həsənov

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin SABAH qruplarının kinorejissorluq fakültəsinin məzunudur. Gənclər üçün Prezident Mükafatına layiq görülüb.





## Vətənim Azərbaycan!

Azərbaycan 2021

Sosial çarx 00:50

Vətənin, torpağın, xalqın uğrunda sinəsini qabağa verib şəhid olan general Polad Həşimovun və onun timsalında vətən uğrunda canından keçən bütün şəhidlərimizə həsr olunur.

### Kərim Rəhimov

Gənc rejissor çəkdiyi bir neçə audiovizual əsərləri ilə yerli festivallarda iştirak edib. Sonuncu nailiyyətini "Erməni zindanında 8 gün" kitabına çəkdiyi treyleri ilə Buuktreyler-2020 festivalında əldə edib.





## Xocalı nişanəsi

Azərbaycan 2021

Sosial çarx 03:51

Xocalı nişanəsi kimi tanınan beş yaşlı naməlum qız, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülən 63 uşaqdan biridir.



**Elçin Elxanlı**

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində televiziya rejissoru ixtisasına yiyələnib. Yerli telekanallarda rejissor və montajçı, departament rəhbəri kimi çalışıb. “Render” montaj studiyasının rəhbəridir.

# BAFTA nominantları



## İndiki
## The Present

Böyük Britaniya-Fələstin / United Kingdom-Palestine — 2020

Bədii / Fiction — 24:16

Toyunun ildönümündə Yusif balaca qızı ilə birgə arvadına hədiyyə almaq üçün Qərb sahilinə üz tutur. Amma əsgərlər və nəzarət-keçid məntəqələri arasında alış-veriş etmək nə qədər asan başa gələcək?

On his wedding anniversary, Yusef and his young daughter set out in the West Bank to buy his wife a gift. Between soldiers and checkpoints, how easy would it be to go shopping?



**Fərəh Nabulsi**

Yazıçı, prodüser və rejissordur. “İndiki” filminin premyerası Klermon-Ferrane Beynəlxalq Qısa Filmlər Festivalında baş tutub.

Farah Nabulsi

He is a writer, producer and director. “The Present” premiered at Clermont-Ferrand International Short Film Festival.



## İtmiş oğlan haqqında mahnı
## The Song Of a Lost Boy

Böyük Britaniya / United Kingdom — 2020

Animasiya / Animation — 09:55

Xorda oxuyan gənc oğlan Ben solo zamanı səsi batdığında mənəvi böhran keçirir və öz icmalarından qaçmaq qərarına gəlir. O, köçərilərlə qarşılaşır, onlara qoşulsa da, əslində kim olduğunu gizli saxlayır.

Ben a young choir boy, who after his voice breaks mid solo, has a crisis of faith, decides to run away from his community. He happens upon a group of nomads who take him in, though Ben hides a secret about who he really is.



**Daniyel Quork**

Kadrlı animasiya və qarışıq texnika üzrə ixtisaslaşmış rejissordur. Midlseks Universitetində, daha sonra isə Milli Film və Televiziya Məktəbində təhsil alıb.

Daniel Quirke

He is a director who specialises in stop motion and mixed media techniques. He studied at the Middlesex University before going onto The National Film and Television School.



## Qızıl balıq
## Goldfish

Böyük Britaniya / United Kingdom — 2019

Bədii / Fiction — 18:28

Böyük qardaşının ölümündən sonra 11 yaşlı Viola var gücü ilə dərdinin öhdəsindən gəlməyə çalışır. Onun ətrafında yalnız anası və qiymətli qızıl balığı var. Amma onun həyatı naməlum adamın məktubundan sonra tamamilə dəyişir.

In the aftermath of her older brother’s death, 11-year-old viola is struggling to process her grief. With only her mother and precious pet goldfish for company, her rosy view of the world is turned upside down until she finds a letter from a stranger.

**Hektor Dokrill**

Londonlu rejissor əsasən, musiqi klipləri çəkir. “Qızıl balıq” filmi “Pulse Films”, BFI və “Haus Pictures” tərəfindən istehsal olunub.

Hector Dockrill

He is a London based director who has shot music videos. Goldfish was produced by the Pulse Films, the BFI and Haus Pictures.





## Tələ
## The Trap

Böyük Britaniya / United Kingdom — 2019

Bədii / Fiction — 32:00

Orta yaşlı qadın Mişel tək yaşayır və öz emalatxanasında işləyir. Vaxtaşırı avtomobillərində problem yaranan qonşularına kömək edir. Bir gün kəndə maraq doğuran və bir az da narahatlıq yaradan gənc oğlan gəlir…

A woman of a certain age, Michelle, lives in solitude, working in her own workshop occasionally helping her neighbors who have problems with their cars. One day an intriguing and even a little disturbing young man arrives in the village…

**Lina Hədi**

Lina Hədi geniş kütləyə “Taxt oyunları” serialından aktrisa kimi tanışdır. İndi o, özünü həm rejissor, həm də ssenarist kimi sınayır.

Lena Headey

Lena Headey, popularly known from “Game of Thrones”, is not just a remarkable actress. She is now also writer and director.



# Panorama



## Axşama doğru

Azərbaycan 2020

Bədii 12:00

Cütlük şəhər kənarına ailə ziyafətinə gedir. Cütlük arasında gündəlik, məişət məsələləri ilə bağlı yaranan fikir ayrılığı gözlənilməz məqamlara səbəb olur. Bu səbəbdən qadın qəhrəman çətin, amma öncədən təxmin olunan vəziyyətə düşür.



**Teymur Hacıyev**

Rejissor və prodüserdir. "Axşama doğru" filmi 73-cü Kann kinofestivalının "La Semaine dela Critique" ("Tənqid həftəsi") proqramına daxil olub. Rejissorun "Şanxay, Bakı", "Duz, istiot zövqə görə" filmləri də nüfuzlu festivallarda iştirak edib.



## Sizə məktub var

Azərbaycan 2021

Bədii 40:00

Hadisələr birinci Qarabağ müharibəsi zamanı ön cəbhəyə yaxın qəsəbədə baş verir. Səidə qospitala gətirilən əsgərlərdən birinin ona məktub yazdığını və əsgərə olan sevgisi barədə uşaqlıq dostu Nadirə danışır. Əsgərdən gələn məktubları Səidə dostu ilə birgə oxuyur. Amma dostu Nadirin onu sevdiyindən xəbəri yoxdur.



**Məzahir Həşimov**

Sumqayıtda anadan olub. Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunda professor, kinorejissor S.A.Solovyovun emalatxanasında Kinorejissorluq fakültəsində təhsil alıb. Bir neçə qısametrajlı bədii filmin müəllifidir.



## Bu sevgidir

Azərbaycan 2017

Sənədli 31:00

65 ildir birlikdə yaşayan ailə cütlüyünün bir-birinə olan məhəbbəti azalmayıb. Onlar qazandıqlarının şirinliyini və itirdiklərinin acısını dadaraq uzun və xoşbəxt həyat yaşayıblar. Təkcə sevgi dəyişmədən, onların bütün həyatını müşaiyət edib. Həyata olan sevgi, ən əsası isə qarşılıqlı sevgiləri onları heç vaxt tərk etməyib.

**Teymur Daimi**

Rəssam, kinorejissor, ssenaristdir. Çəkdiyi filmlər beynəlxalq kinofestivallarda mükafatlara layiq görülüb. "Bu sevgidir" filmi Kazan Beynəlxalq Müsəlman Film Festivalında, Eurasia International Monthly Film Festivalında "Ən yaxşı sənədli film" nominasiyasında qalib olub.





## Şekspir

Azərbaycan 2018

Bədii 12:00

Daim sevgiyə ehtiyac hiss edən orta yaşlı kişinin həm həyat yoldaşı, həm də sevgilisi var. Təsadüf nəticəsində bu üçlük kafedə qarşılaşır və onlar arasındakı mübahisə qəhrəmanın gözlənilməz qərarı ilə nəticələnir.

**Cavid Təvəkkül**

Bir sıra bədii, sənədli və televiziya filmlərinin müəllifidir. "Əzizim Fellini", "Qarabağnamə", "Bir günəş altında", "Cümhuriyyət" və.s filmləri lentə alıb. "Şekspir" filmi bir çox beynəlxalq festivallarda iştirak edib.



# *Bizimkilər*
## proqramı



## Ağacdələn

İran 2021

Bədii 15:30

İranın kəndlərinin birində yaşayan Mahmud hakimiyyətin siyasi qaydalarına qarşı çıxır. Siyasi qüvvələr onu təqib edir və öldürməyə çalışırlar. Onlar bu işə Mahmudun dostunu da cəlb ediblər.



### Məhəmməd Siyamakniya

Təbrizdə anadan olub. Elektrotexnika üzrə təhsil alıb. 18 yaşından kinoya həvəsi yaranıb. İlk kino təcrübəsi sənədli filmə çəkilməklə başlayıb. Bundan sonra o, bir neçə filmdə rejissor köməkçisi kimi çalışıb.



## Qara yol

İran 2018

Bədii 15:49

Gənc qız atasının dəfn mərasiminə gedir və yolda bir yazıçı ilə tanış olur. Yazıçı onunla öz fikirlərini bölüşür, gələcək planlarından danışır. Yazıçı ilə görüşü ona xoşagəlməz anlar yaşadır.



### Leyla Novruzi

Ərdəbilli rejissor Leyla Novruzi sənət fəaliyyətinə ssenarist, rejissor və aktrisa kimi başlayıb, on beşdən çox qısametrajlı filmə çəkilib. Biri bədii, digəri sənədli olmaqla iki qısametrajlı filmin müəllifidir.



## Qarlı yollar

İran 2019

Sənədli 29:20

Ucqar əyalətdə həyat ağır keçir. Xüsusən də qız uşaqları üçün. Burada yeniyetmə, gənc qızlar ev işləri görür, tikiş tikir, toxuculuqla məşğul olur, xalça toxuyurlar. Amma onların hamısının bir arzusu var-məktəbdə oxumaq.

### Haydə Muradi



Ərdəbil vilayətində anadan olan rejissor Tehranın Sur Universitetində təhsil alıb. Bir neçə bədii və sənədli filmin müəllifidir. Filmləri beynəxalq kinofestivallarda mükafatlara layiq görülüb.



## Qəssab

İran 2017

Bədii 07:00

Filmin qəhrəmanı ovçu və qəssabdır. Çöl quşlarını ovlayır, doğrayaraq ətini satır. Eyni zamanda o, evində quşlar saxlayır, onları sevərək qayğılarına qalır.

### Rəsul İranzad Ağamirli



Teatr rejissoru ixtisası üzrə təhsil alıb. Təbrizdə bir neçə tamaşa səhnələşdirib. Ssenarist, həmçinin prodüserdir. “Qəssab” qısametrajlı filmi kinorejissor qismində ilk təcrübəsidir.



## Şaxta

İran 2021

Bədii 16:40

Şaxtalı günlərin birində Əyyub işdən növbəti tapşırıq alır. O, öz avtomobili ilə yük daşıyır. Bu dəfəki yükü meyit olur. O, meyiti ünvanına çatdırmalıdır. Qar çox yağdığından Əyyub yoluna davam edə bilmir. O, qızınmaq üçün bir çarə tapmalıdır.



**Rza Fəthi**

Rza Fəthi Təbrizdə doğulub. Gənc Kino Assosiasiyasında tammetrajlı kino kursunu bitirib. Bir neçə qısa filmin müəllifidir.

# THE END

12.BAKU INTERNATIONAL SHORT FILM FESTIVAL

#BakuISFF

# BAKU INTERNATIONAL SHORT FILM FESTIVAL



cinema

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

AZƏRBAYCANFİLM

NİZAMİ KINO MƏRKƏZİ

film

FILM FICTION MAGAZINE

CINEMA RADIO

KİNOBİZ

TELEQRAF

trend news agency

xəzər

www.filmfestival.az

December
10/15.2020



## Oleq Səfərəliyev (Rusiya-Azərbaycan)
Oleg Safaraliyev (Russia-Azerbaijan)

**Rejissor, prodüser, ssenarist**
Director, producer, screenwriter

Azərbaycan və Rusiya kinorejissorudur. Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun "Kinorejissorluq" fakültəsində, Sergey Solovyovun emalatxanasında təhsil alıb. Diplom işi "Murad-Sad"ın uğurundan sonra "Mosfılm"ə dəvət olunub. İlk tammetrajlı filmi olan "Birbaşa yayım"ı 1989-cu ildə Rusiyada çəkib. "Çalışan adam", "Ka-de-bo", "Məni tap" filmlərinə, "Rossiya" telekanalının sifarişilə "Savva Morozov", "Petrovka 38", "Növbətçi mələk-2" çoxseriyalı telefilmlərə quruluş verib. On il "Avrasiya Film" kino şirkətinin baş prodüseri olub. "Azərbaycanfilm" kinostudiyasında çəkdiyi "Əlvida, Cənub şəhəri" filmi Berlin, Monreal, İstanbul kimi nüfuzlu kinofestivallarda nümayiş etdirilib. Hazırda Azərbaycan Kinematoqrafçılar İttifaqının Kino məktəbinin direktorudur.

Oleg Safaraliyev is Azerbaijan and Russian film director. He studied in the faculty of "Film directing" of All-Union State Institute of Cinematography, in the studio of Sergey Solovyov. After the success of the Graduation work "Murad-Sad", he was invited to the "Mosfilm". He shot the "Live Broadcast" which is the first full-length film in Russia in 1989. He gave the structure the "Employee", "Ka-de-bo", "Find me" films, to the "Savva Morozov", "Petrovka 38", "The duty angel-2" multi-series TV films commissioned by the Russian TV channel. He was the chief producer of the "Eurasian Film" company for ten years. The "Farewell, South city" film he made in the "Azerbaijan film" film studio is displayed at international film festivals including at major film festivals as Berlin, Monreal, Istanbul. He is currently the director of the Film school of Union of Cinematographers of Azerbaijan.



## İrina Şatalova (Rusiya)
Irina Shatalova (Russia)

**Operator, prodüser**
Producer

S.A. Gerasimov adına Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun "Operatorluq" fakültəsini bitirib. Baş operator kimi iyirmidən çox sənədli film lentə alıb, bir sıra yerli və beynəlxalq festivallarda mükafatlara layiq görülüb. 2011-ci ildən etibarən prodüserlik fəaliyyətinə başlayıb. Nyu-Yorkda NYFA Kinoakademiyasında prodüserlik və distribusiya kursunu, Çexiyada isə "Emerging Producers" Gənc Avropa Prodüserləri proqramını keçib. "DOKer" sənədli müəllif kinosunun nümayişi layihəsinin təsisçilərindən biri, təşkilatçısı və kuratorudur.

She graduated from the "Operatorship" faculty of All-Union State Institute of Cinematography named after S.A. Gerasimov. She filmed the documentaries more than twenty as chief operator, she was awarded in a number of local and international festivals. She has begun her producer activity since 2011. She studied production and di stribution course at NYFA Film Academy in New York, "Emerging Producers" Young European Producers program in Czech. She is one of the founder of the presentation project, organizer and curator of "DOKer" documentary author's film.



## Mehmet Bahadır Er (Türkiyə)
Mehmet Bahadır Er (Turkey)

**Rejissor, prodüser**
Director, producer

Memar Sinan Gözəl Sənətlər Universitetinin Kino-Televiziya Akademiyasını bitirib. "Ömər və biz", "Sev məni", "Qara itlər hürəndə" və başqa filmləri Antalya Qızıl Portağal Film Festivalı, Adana Qızıl Koza Film Festivalı, Ankara Film Festivalı, "İfsak" Qısa Film Festivalı, İstanbul Müstəqil Filmlər Festivalı kimi yerli festivallarda əsas mükafatlara layiq görülüb. Rejissor lentə aldığı filmlərlə, həmçinin, Montreal, Rotterdam, Locarno, Sarayevo, Varşava, Tallin, Tokyo, Newyork, Stockholm, Cario, Kazan kimi beynəlxalq kino festivallarının laureatı olub. Mehmet Bahadır Er 2017-ci ildən etibarən Avropa Film Akademiyasının üzvüdür.

The architect Sinan graduated from the Film-Television Academy of Fine Arts University. His "Omar and us", "Love me", "Black Dogs Barking" and other films were awarded grand prix in local festivals as Antalya Golden Orange Film Festival, Adana Golden Boll Film Festival, Ankara Film Festival, Ifsak Short Film Festival, Istanbul Independent Film Festival. He was laureate with films made by the director, including influential international film festivals as Montreal, Rotterdam, Locarno, Sarajevo, Warsaw, Tallinn, Tokyo, New York, Stockholm, Cairo", Kazan. Mehmet Bahadir Er has been a member of the European Film Academy since 2017.



## Rüfət Əsədov (Azərbaycan)
Rufat Asadov (Azerbaijan)

**Rejissor**
Director

Leninqrad Rəssamlıq Akademiyasında, "Lenfilm"in nəzdindəki Kino Məktəbində təhsil alıb. Amerikalı prodüser Oleq Harrincarın rəhbərlik etdiyi "Sənədli filmlərin istehsalı" kurslarınının dinləyicisi olub. ABŞ-ın "Promatheus Production" kinostudiyasında staj keçib. Rejissorun debüt filmi olan "Vahimə" Fransada təltif edilib, o cümlədən ölkəmizdə "Humay", "Qızıl çıraq" mükafatlarına layiq görülüb. 2004-ci ildə quruluş verdiyi "Arxada qalmış gələcək" bədii filmi isə müxtəlif festivallarda tamaşaçı rəğbətini qazanıb. Rejissor dağ yəhudiləri haqqında 3 sənədli filmin ("Quba yəhudiləri", "Kənddə sonuncu yəhudi" və "Peyğəmbər Yereminin göz yaşları") müəllifidir. Bu filmlər dəfələrlə İsraildə, Avropada və ABŞ-da müxtəlif kinofestivallarda və tədbirlərdə nümayiş etdirilib, ölkəmizə nüfuzlu mükafatlar gətirib.

He studied at Leningrad Academy of Arts, Film School under "Leninfilm". He was the student of "Production of Documentaries" courses are led by American producer Oleg Harrinjar. He did internship at "Promatheus Production" film studio in USA. The Director's debut film "Fright" was awarded "Humay", "Golden lamp" prizes in France as well as in our country. "The future left behind" artistic film which he gave structure in 2004 has earned the audience sympathy at various festivals. The director is the author of 3 documentaries about mountain Jews ("Guba Jews", "The last Jew in the village" and "The tears of the prophet Jeremiah"). These films are repeatedly displayed at various film festivals and events in Israel, Europe and USA, they have brought prestigious awards to our country.



## Nadir Bədəlov (Azərbaycan)
Nadir Badalov (Azerbaijan)

**Kino redaktoru, ssenarist, telejurnalist**
Film editor, screenwriter, telejournalist

"Azərbaycantelefilm" Yaradıcılıq Birliyində böyük redaktor vəzifəsində onlarla sənədli filmin çəkilişində iştirak edib. Qəzet və jurnallarda teatr, kino sənətkarlarına, tamaşa və filmlərə həsr olunan məqalələr yazıb, radio və TV layihələrinin müəllifi olub. ANS televiziyasında "Naməlum məşhurlar", "Dahilərin divanı" və "100-cü baxış" tok-şoularında müəllif və aparıcı qismində çıxış edib, paralel olaraq "El" jurnalının şef-redaktoru olub. "Salnamə" sənədli filmlər studiyasında redaktor vəzifəsində işləyib, "Mahmud və Məryəm", "Mən evə qayıdıram", "Komandir", "Qartal yuvası" və bir sıra filmlərinin redaktoru, eyni zamanda ssenari müəllifi olub.

He took part in the shooting of numerous documentaries as a chief editor in the "Azerbaijantelefilm" Art Union. He has written articles dedicated theatre, film artists, performances and films in the newspaper and journals and was the author of radio and TV projects. He has acted as an author and presenter in "Unknown celebrities", "Geniuses chamber" and "100th review" talk shows of ANS television and in parallel he was the chief editor of "People" journal. He has worked as an editor in "Chronicle" documentaries studio, he was the editor and also a scenarist of "Mahmud and Maryam", "I return back home", "Commander", "The eagle's nest" and a number of films.



## Teymur Hacıyev (Azərbaycan)
Teymur Hajiyev (Azerbaijan)

**Rejissor, ssenarist, prodüser**
Director, screenwriter, producer

"FIL Production" şirkətinin təsisçisidir. İndiyə kimi 15-ə yaxın qısametrajlı film istehsal edib. 2014-cü ildə Locarno Beynəlxalq Film Festivalının nəzdindəki Yay Akademiyasına qəbul olunub. "Yara" qısametrajlı debüt işi Palm Springs Beynəlxalq Kino Festivalında nümayiş olunub. "Şanxay, Bakı" qısametrajlı filminin premyerası Tampere Film Festivalında baş tutub. "Duz, istiot zövqə görə" qısa filmi Avropanın ən nüfuzlu kinoforumlarından olan Rotterdam Beynəlxalq Film Festivalının müsabiqə bölməsində iştirak edib. 2020-ci ildə isə "Axşama doğru" filmi Kann Festivalının "Tənqidçilər həftəsi" (Semaine de la Critique) proqramına daxil edilib.

He is the founder of "FIL Production" company. He produced about 15 short films until now. He was accepted to the Summer Academy under Locarno International Film Festival in 2014. The "Wound" short debut work has displayed at the Palm Springs International Film Festival. The premium of "Shanghai, Baku" short film took place at the Tampere Film Festival. "Salt and pepper to your own delight" short film has participated in the competition section of the Rotterdam International Film Festival, one of the most prestigious film forums in Europe. In 2020, the film "Towards the Evening" was included in the program of Critic's Week (Semaine de la Critique) of Cannes Film Festival.



## Ərturan Nəcəfi Göl (İran)
Arturan Najafi Gol (Iran)

**Rejissor**
Director

Gənc rejissor İranda "Urmiya Gənc Sinemaçılar Dərnəyi"nin nəzdindəki kinematoqrafiya kursunda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kinorejissorluq" fakültəsində təhsil alıb. Diplom işi olan "Səs" qısametrajlı bədii filmi XIII Beynəlxalq Kazan Film Festivalının əsas, Bosniya-Hersoqovinanın XI Jahorina Beynəlxalq Film Festivalının qısametrajlı bədii filmlər bölməsində "Golden Mapple" (birinci mükafat), VIII Azərbaycan Ailə Film Festivalının əsas, Livanda keçirilən Baalbek Beynəlxalq Qısametrajlı Filmlər Festivalında münsiflər heyətinin xüsusi mükafatlarına layiq görülüb.

The Young Director studied in the cinematography course under the "Urmia Young Cinematographers Association" in Iran, at the "Film Directing" faculty of the Azerbaijan State University of Culture and Arts. The "Voice" short artistic film which is the graduation work was awarded with "Golden Mapple" (first award) basically in the section of short artistic films of the XI Jahorina International Film Festival of Bosnia and Herzegovina of the XIII International Kazan Film Festival, basically at the Baalbek International Short Film Festival in Lebanon of the VIII Azerbaijan Family Film Festival by Jury.



BAKU INTERNATIONAL SHORT FILM FESTIVAL

# MÜSABİQƏ PROQRAMI
COMPETITION PROGRAM

# Beynəlxalq müsabiqə
International competition



## 1947
## 1947

Avstriya / Austria 2020

Bədii / Fiction 21:59

Nasist rejimi ilə əlaqəli olan ailə Avstriyadakı boşalmış evinə qayıdır. Onların II Dünya müharibəsindən sonra ölkəni tərk etmək cəhdi alınmır.

A family that have ties with the Nazi regime comes back to their empty house somewhere in Austria, after their plan to leave the country after the World War two had failed.



### Mo Harawe

Somalidən olan rejissor Moqadişoda anadan olub. Yeniyetməlik yaşlarında incəsənət təmayüllü məktəbdə təhsil aldığı vaxt kinoya həvəs göstərməyə başlayıb. 2009-cu ildə Avstriya köçən gənc Vyanada rejissorluq fəaliyyətinə başlayıb.

### Mo Harawe

Mo Harawe is a Somalian Filmmaker born in Mogadishu. He discovered his passion for the cinema through an art school where he went to as a teenager. Since 2009 Mo Harawe has been in Austria and living in Vienna where his journey as a filmmaker began.



## Acı ot - Piolun
## Bitter Herb - Piołun

Polşa / Poland 2019

Bədii / Fiction 16:28

Ana övladını süddən kəsmək üçün köhnə adətlə sinəsinə acı yovşan mazı çəkir. Acılığı hiss edən uşaq bir də heç vaxt ana südü istəməyəcək.

When wanting to stop breastfeeding a child, a Mother in the old times would rub wormwood ointment into her bosom. Upon tasting the bitterness, the child would never desire for the mother's milk again.



### Maria Ornaf

Gənc rejissor Poznanda İncəsənət Akademiyasını bitirib, hazırda isə Polşa Milli Kino Məktəbinin rejissorluq fakültəsində təhsil alır.

### Maria Ornaf

The young director graduated from the Poznan Fine Arts Academy, and is currently studying at the directing Department of the Polish National Film School.



## Bağışla, ata
## Forgive Me, Father

Almaniya / Germany 2020

Bədii / Fiction 21:33

1966-cı il. Almaniya iki dövlətə bölünüb. Şərqi Berlində nənəsi ilə yaşayan 10 yaşlı Tomas uşaq olarkən anasının naməlum səbəblərdən psixiatriya xəstəxanasına yerləşdirilməsinin şahidi olub. Uşaq bu günə kimi həmin hadisənin təsiri altında yaşayır.

1966 year. Germany is divided. Not far from East Berlin, 10-year-old Thomas grows up with his grandmother. As a small boy, he has to witness his mother being committed to a psychiatric institution for unknown reasons. This event haunts the boy up to his present.

### Yona Şlosser

19 yaşlı Yonanı reallığa yaxın əhvalatlar maraqlandırır. Sonra o, bu əhvalatları kino vasitəsilə başqalarına çatdırır. 14 yaşında olarkən "Yelkənlər altında dərs" layihəsinə qoşulur. Çəkdiyi materiallar əsasında ilk sənədli filmini lentə alır və sonra kino məktəbinə daxil olur.



### Jona Schlosser

Jona is 19 years old and especially stories that are close to reality interest him. He then tells these stories to others through cinema. At the age of 14 he applies for the project "Classroom under Sails". From the vast amounts of material he edited his first documentary film and going to film school later.



## Canavar sürüsü
## Wolfpack

Braziliya / Brazil 2020

Bədii / Fiction 17:35

Qadın məişət zorakılığından qurtulmaq üçün digər qadınların köməyindən istifadə edir. Film K.P. Estesin "Canavarlarla qaçan qadınlar" əsərinin motivləri əsasında çəkilib.

A woman has the support of other women to get out of a situation of domestic violence. Short film freely inspired by the book Women Who Run With the Wolves, by C. P. Estes.

### Karolina Kastilo

Kino və fəlsəfə üzrə təhsil alıb. Qısametrajlı fımləri beynəlxalq kinofestivallarda mükafatlara layiq görülüb. O, həmçinin doğma şəhəri İndayatubada ilk qısa filmlər festivalının təsisçisidir.



### Carolina Castilho

She studied cinema and philosophy. Her short films was selected and awarded at international film festivals. She organized the 1st short film festival in her hometown, Indaiatuba.



## Çarpayı
## The Bed

Kolumbiya / Colombia 2020

Bədii / Fiction 14:00

Alan və Adriana evi boşaltmağa başlayırlar. İkiyataqlı çarpayını otaqdan çıxaran zaman, çarpayı ilişir və onlar ayrı-ayrı tərəflərdə qalırlar. Onların bir-birini görməməsi cütlüyə, nəhayət ki, dürüst olmağa və birlikdə yaşamaq istəməmələrinin səbəbini etiraf etməyə fürsət verir.

Alan and Adriana are emptying their place. While trying to take a queen size bed out of their room, the bed gets stuck, separating them, disabling them to be together. The impossibility of seeing one another, will transform into a possibility for this couple to finally be honest, and recognize the reasons why they have decided not to live together anymore.



**Daniela Abad Lombana**

Daniela sənədli və bədii filmlər çəkir, prodüser kimi fəaliyyət göstərir. Onun “The Smiling Lombana” sənədli filmi Kartaxen kinofestivalının açılışında nümayiş olunub.

Daniela Abad Lombana

Daniela makes short documentaries and feature films, works as a producer. Her film, also a documentary The Smiling Lombana, was selected to open Cartagena Film Festival.



## Çox sağ ol, sən?
## Good Thanks, You?

United Kingdom / Böyük Britaniya 2020

Bədii / Fiction 13:15

Cinsi təcavüzə məruz qalmış Emi özünə qapanıb və heçkimlə münasibət qura bilmir. O, özünü toparlamalı və həyatını yaşamağa çalışmalıdır.

Amy, who was sexually assaulted, is locked up and unable to have sex with anyone else. He must gather himself and try to live his life.



**Molli Menninq Uoker**

Londonlu rejissor NFTS-də təhsil alıb. Onun “Çox sağ ol, sən?” rejissor debütü 2020-ci ildə Kann kinofestivalının “Semaine de la Critique” proqramına daxil edilib.

Molly Manning Walker

The London-based director graduate of the NFTS. Her directorial debut, “Good Thanks, You?” is part of the 2020 Semaine de la Critique support programme of the Cannes Film Festival.



## Əbədi gecə
## Perpetual Night

Portuqaliya / Portugal 2020

Bədii / Fiction 17:23

İspaniya, Kastuera, 1939-cu ilin apreli. Bir gecə iki falanqaçı-keşikçi Pazın ailəsiylə birgə gizləndiyi evə gəlirlər. Onlar qadını polis bölməsinə aparmaq istəyirlər. Qaçmağa imkan tapmayan qadın sonuncu dəfə körpə qızını əmizdirmək üçün icazə istəyir.

Castuera, Spain, April 1939. During the night two Falangist Guards appear at the door of the house where Paz is taking refuge with her family. They request her presence at the police station. With no chance to escape, she asks to breastfeed her newborn daughter one last time.

**Pedro Peralta**



Gənc rejissor bir neçə qısametrajlı filmin müəllifidir. Onun “Ascension” qısa filminin premyerası Kann kinofestivalının “Semaine internationale de la critique” proqramında baş tutub, daha sonra film yetmişdən çox beynəlxalq festivalda iştirak edib.

Pedro Peralta

The young director is the author of several short films. His the short film Ascension, internationally premiered at the Critics’ Week of the Cannes Film Festival and selected in more than seventy festivals.



## Evə istəyirəm
## I want To Go Home

Rusiya / Russia 2020

Bədii / Fiction 14:05

O dərəcədə evə istəyirdi ki, eləcə qəbirdən qalxır və gedir. Amma artıq evi başqaları tərəfindən tutulub, ona öz evində yer yoxdur.

He wanted to go home so badly that he just got up out of his grave and went. But it turns out that his home was now occupied.

**Tatyana Lyalina**



Tatyana Ukraynada doğulub. 2015-ci ildə Kiyev Milli Teatr, Kino və Televiziya Universitetini bitirib. Hazırda Moskvada “Sovremennik” teatrında aktrisa işləyir.

Tatyana Lyalina

Tatyana Lyalina was born in the Ukraine. In 2015 graduated from Kyiv National University of Theatre, Cinema and Television. Currently, she works as an actress at the “Sovremennik” theater in Moscow.



## Hər şey unuduldu
## All Smothered

Belçika / Belgium 2020

Bədii / Fiction 19:45

14 yaşlı zarafatcıl oğlan Mayul oxuduğu məktəbdə yaşıdları arasında məşhurdur. Bir gün sinif yoldaşı Luiza gözü sarıqlı halda dərsə gəlir. Mayul Luizanın başına gələnləri öyrənmək istəyir və bundan sonra baş verənlərin məsuliyyətini özü daşımalı olur.

Mayeul, 14 years old, is a mocking boy who's popular in his school. The day Louise comes to class with a bandage over her eye, Mayeul tries to hide what happened but he will have to face his responsibility.



### Eli Şeviyo

İxtisasca riyaziyyatçı olan Eli sonradan Institut des Arts de Diffusion-da kino təhsili alıb. Onun bundan əvvəl lentə aldığı "Əlçatmazlıq" filmi bir sıra beynəlxalq kinofestivallarda iştirak edib.

### Ely Chevillot

After mathematics studies Ely studies at IAD (Institut des Arts de Diffusion), the film school. His previous film "The Elusive" has participated in several international film festivals.



## İcma bağları
## Community Gardens

Litva / Lithuania 2019

Bədii / Fiction 15:00

Patriarxal kişilik anlayışı get-gedə nüfuzdan düşür. Ata və oğulun münasibətləri soyuyub. Laqeydlik onların əlaqələrini tamamilə kəsir.

Patriarchal masculinity seems to catch its last breath in the sun. A story about a cold relationship between a father and his son. Their bond, plagued by indifference, disintegrates completely.



### Vitautas Katkus

O, həm kinoda, həm də videart layihələrdə operator olaraq çalışır. Katkus 2014-2015 ci illərdə Litvanın kinematoqrafçılar Assosiasiyasının "Ən yaxşı gənc operator" mükafatına layiq görülüb. "İcma bağları" debüt filmi Kann kinofestivalının 58-ci "Semaine de la Critique" proqramına seçilib.

### Vytautas Katkus

He works as cinematographer in movies as well in video art projects. He won best young cinematographer award by Lithuanian Association of Cinematographers in 2014 and 2015. "Community Gardens", his debut short film, is selected at the 58th Semaine de la Critique section of the Cannes Film Festival.



## Oksigen
## Oxygen

Gürcüstan / Georgia 2020

Bədii / Fiction 9:15

40 yaşlı kişi kiçik qardaşını anasının dəfninə aparmağa çalışır. Bu, çoxdan bağlı qalmış məsələləri gündəmə gətirir və ailə bağlarının qırılması ilə nəticələnən qarşıdurmaya səbəb olur.

A man in his forties is trying to take his younger brother to their mother's funeral. This unexpectedly brings to light long-suppressed questions, resulting in a confrontation with a desire to sever family ties.

### Valeri Olehno



Valeri Riqada doğulub. Təsviri sənətə gəlişi fotoqrafiya vasitəsilə başlayıb. Sonra isə Latviya Mədəniyyət Akademiyasının rejissorluq fakültəsini bitirib. Bir sıra bədii və ekperimental qısametrajlı filmin müəllifidir.

### Valerijs Olehno

Valerijs was born in Riga. His first contact with visual arts was through photography. Then he graduated from the Latvian Academy of Culture with a master's degree in film directing. He is the author of a number of experimental and fiction short films.



## Pərdə
## The Curtain

Fransa / France 2020

Bədii / Fiction 23:54

Var-yoxdan çıxan parisli skripkaçı öz birotaqlı mənzilini pərdə ilə yarıdan bölür və otaq yoldaşı tapır. Bu gənc sirli qadın onu daxili təlatümlər keçirməyə vadar edir...

A broke Parisian violinist divides his studio apartment in half with a curtain and finds a roommate: a young mysterious woman who pushes him in a state of inner turmoil…

### Leopold Devolf



Gənc rejissor Londonda animasiya, Los-Ancelesdə isə kino istehsalı üzrə təhsil alıb. Onun lentə aldığı iyirmi qısametrajlı bədii və animasiya filmi beynəlxalq kinofestivallarda mükafatlara layiq görülüb.

### Leopold Dewolf

Young director studied animation in London and film production in Los Angeles. He has directed twenty short films, both animation and live-action. His films netted him awards in international film festivals.



## Qaçış
## Escape

Türkiyə / Turkey 2019

Bədii / Fiction 11:12

Müxtəlif coğrafi regionlarda böyümüş iki qadın, iki ana. İki fərqli həyat. Bu iki qadının yolu dənizin ortasında bir qayıqda kəsişir.

Two woman grown up in different geographies. Two mother. Two different life. Intersecting roads in the Middle of the sea in the boat.



**Burak Çelik**

Gənc rejissor Ege Universitetinin Radio, kino və tv fakültəsində təhsil alıb. Kino sahəsindəki beş illik təcrübədən sonra şəxsi film istehsalı şirkətini qurub. "Qaçış" onun ilk müstəqil filmidir.

Burak Chelik

Young director graduated Radio, Cinema and TV expertise from Ege University. After five years of experience in the field of cinema, he established his own film production company. "Escape" his first independent film.



## Qayıqda
## On The Boat

Qırğızıstan / Kyrgyzstan 2020

Bədii / Fiction 14:00

Qayıqla insanları bir sahildən digər sahilə daşıyaraq gündəlik pul qazanan 25 yaşlı müsəlman kişi bir gün hamilə xristian qadını aparmalı olur. Yolda qadının ağrıları başlayır və kişi ona doğmağa kömək etməlidir.

A 25-year-old Muslim who earns his living moving people from one bank to another by boat, is forced to move a pregnant Christian woman to another bank. But, because of the strong birth pangs of a pregnant woman, a Muslim will help a Christian woman to give birth.



**Bəyzak Məmətəliyev**

"Manas" Qırgız-Türk Universitetinin "Tarix" fakültəsində təhsil alıb. Sonra isə Temir Birnəzərovun rejissorluq kursunu bitirib.

Baizak Mamataliev

He graduated from the History Department of the Kyrgyz-Turkish "Manas" University. Then he attended a directorial course of Temir Birnazarov.



## Qırmızı Aninsri; və ya ayaqlarının ucuyla hələ də titrəyən Berlin divarının üzərində
## Red Aninsri; or, Tiptoeing on the Still Trembling Berlin Wall

Tailand/Thailand 2020

Bədii / Fiction 29:00

Casus fahişə-lediboya maskulin gey olaraq maskalanmaq və aktivist-idealist olan tələbədən vacib məlumatı almaq tapşırığı verilib.

A ladyboy prostitute-cum-spy is assigned a mission to disguise as a cis-masculine gay to acquire important information from an idealistic student activist.

**Ratçapum Bunbunçaçok**

Ratçapum Çulalonqkornsk Universitetinin "Kino" fakültəsini bitirib. Filmləri müxtəlif festivallarda iştirak edib. Hazırda o, ssenarist kimi çalışır və ali məktəblərdə kino nəzəriyyəsindən dərs deyir.



Ratchapoom Boonbunchachoke

Ratchapoom graduated from the film department of Chulalongkorn University. His films have participated in various festivals. He currently works as a scriptwriter and teaches film theory at universities.



## Regina
## Regina

İspaniya / Spain 2019

Bədii / Fiction 18:21

Karmen adlı gənc qız rahibələrin əhatəsində, onların sərt qaydaları əsasında monastırda yaşamağa məcburdu. Karmen həyatından narazıdır. O, atasından niyə alındığını başa düşmür və onunla birgə yaşadığı günlər üçün darıxır.

A young girl called Carmen is obliged to live in a convent in the company of nuns and under their strict rules. Carmen is not happy. She doesn't understand why she has been taken away from her father and she misses their life together.

**Lander İbarretçe Peres**

Mondraqona Universitetinin "Audiovizual kommunikasiya" fakültəsini, Barselonada "Bande a Part" kino məktəbinin fotoqrafiya bölməsini bitirib. Bədii, sənədli filmlər, videokliplər çəkir.



Lander Ibarretxe Perez

Graduated in Audiovisual Communication from the University of Mondragón and in Photography Direction from the Bande à Part film school in Barcelona. Makes feature films, documentaries, video clips.



## Rikoşetlər
## Ricochets

Polşa / Poland 2019

Bədii / Fiction 29:59

Polşa, 1982-ci il. İki şaxtaçı qardaş despotik kommunist dövlətinə fərqli reaksiyalar verirlər. Yanek gizli demokratik fəaliyyətin aktiv iştirakçısı olduğu halda, Tadek bitərəfliyə can atır. Onların fərqli mövqeyi konfliktə səbəb olur.

Poland, 1982. Two coal miner brothers react differently to oppressive communist state. While Janek prefers active engagement in democratic underground, Tadek seeks neutrality. Their different stances lead to conflict.



**Yakub Radey**

Qısametrajlı bədii, sənədli filmlər və musiqi klipləri rejissoru, ssenaristidir. Onun "Toz" qısa sənədli filmi bir sıra beynəlxalq festivallarda, o cümlədən Klermon-Ferran BQFF, Moskva Beynəlxalq Sənədli Film Festivalında, Yiqlave Beynəlxalq Səndəli Kinofestivalında mükafatlara layiq görülüb.

Jakub Radej

Director and screenwriter of short fictions, documentaries and music videos. His short documentary "Dust" has won plenty awards at international film festivals, including the awards at Clermont-Ferrand ISFF, DOKer Moscow, Ji.hlava IDFF and many others.



## Şedevr
## The Masterpiece

İtaliya / Italy 2020

Bədii / Fiction 10:00

Rəssam Françesko nəhayət ki, öz şedevrini bitirir. O, partnyoru Paolanın çılpaq portretini çəkib. Paola rəsm əsərinə valeh olub. Əmma Françesko ona əsəri önəmli bir sərgidə nümayiş etdirəcəyini deyəndə narazılıq yaranır.

Francesco, all-around artist, has finally finished his masterpiece: a naked portrait of Paola, his partner. She's completely amazed by it. However, when he reveals her that the painting is going to be shown in an important exhibition, troubles begin.



**Stefano Moskone**

Albertina İncəsənət Akademiyasını bitirib. O, bir neçə qısa film, art-video və musiqi klipinin rejissorudur. Gənc rejissor həm də yazıçıdır.

Stefano Moscone

Stefano graduated at the Albertina Academy of Fine Arts. He made art-videos, short-films and music videos. He's also a writer.



## Sən burdasan
## You are here

Rusiya / Russia 2020

Bədii / Fiction 23:48

Qafqaz dağlarında gənc geoloq oğlan və gənc rəssam qız təsadüfən rastlaşırlar. Onların bir-birinə simpatiyası yaranır və gecəni birlikdə keçirirlər. Onilliklər keçsə belə, bu görüşün parlaq təəssüratı qalır.

As chance would have it, a young geologist and an aspiring artist meet in the Caucasus Mountains. They develop a liking to each other and spend an evening and a night together. Even after decades, the gleam of that meeting will persist.

**Orxan Abulov**



Gənc rejissor Moskva Milli Kino Məktəbində, Teatr Məktəbində təhsil alıb. Roma Kinoakademiyasında ustad dərslərində iştirak edib. Kinoda və teatrda aktyor olaraq çıxış edir.

Orkhan Abulov

Young director studied in Moscow international film school and Moscow theatre school. Participated in master-classes of Roma Film Academy. He acts as an actor in cinema and theater.



## Sərsərilər
## Drifters

Çexiya / Czech Republic 2020

Bədii / Fiction 19:03

Səfil həyatının tələsinə düşmüş Elişka getdikcə mənasını itirməyə başlayan bu aləmdən uzaqlaşmağa və kiçik qardaşı ilə birlikdə daha təhlükəsiz, stabil yaşayışa can atır. Məhkəmə icraçıları onların evinə qanunsuz şəkildə soxulanda isə Elişka qardaşı Alyoşanı bu qaranlıq və təhlükəli həyatdan qorumaq üçün tədbir görməli olur.

Trapped in a nomadic world that makes less and less sense, Elishka yearns for a safer and stable life for her and her little brother. As illegitimate executors begin frequenting their home, Elishka is forced to take action to protect her brother Alesha from this shady and dangerous life.

**Cey Uoker**



Praqada İfaçılıq Sənəti Akademiyasının Kino və Televiziya Məktəbində kinorejissorluq fakültəsinin magistr pilləsini bitirib. Erkən yaşlarından aktyorluq karyerası quran Cey sonralar qısametrajlı filmlər, musiqili kliplər və reklam çarxları çəkib.

Jay Walker

She has completed her Master's of Fine Arts degree in Cinema Directing at Film and TV School of the Academy of Performing Arts in Prague (FAMU). Starting his acting career at an early age, later made short films, music videos and commercials.









## Sərt
## Rigid

İspaniya / Spain 2020

Bədii / Fiction 16:00

Nestoru Kabalyero hər gün onu əhatə edən xaotik dünyanın problemləri ilə üzləşir. Bir gün onu qonşusunun divanında oturaraq ölmüş halda tapırlar.

Everyday Nestor Caballero has to deal with the problems of the chaotic world that surrounds him. One day he's found dead sitting on his neighbor's sofa.



**Fernando M. Lopez Qomez, Pablo Miralles Alvarez**

Hər iki rejissor Kataloniya Kino və Audiovizual Məktəbində (ESCAC) təhsil aldıqdan sonra birlikdə çalışmağa başlayıblar. Cütlük, əsasən, "qara komediya" janrına üstünlük verir.



Fernando M. Lopez Gomez, Pablo Miralles Alvarez

Both directors began their partnership after graduating in the Master's degree in filmmaking by the Cinema and Audiovisual School of Catalonia (ESCAC). They keep developing new projects particularly in the black comedy genre.

## Stiker
## Sticker

Şimali Makedoniya Respublikası / Republic of North Macedonia 2020

Bədii / Fiction 18:45

Avtomobolinin qeydiyyatını yeniləyə bilməyən Dejan onun nə dərəcədə məsuliyyətli ata ola biləcəyi əzmini sınağa çəkən bürokratik bir tələyə düşür.

After an unsuccessful attempt to renew his car registration, Dejan falls in a bureaucratic trap that tests his determination to be a responsible father.



**Georgi M. Unkovski**

Georgi Nyu-Yorkda doğulub, Makedoniyada böyüyüb. Roçester Texnologiya İnstitutunda İstmanın Fotoqrafiya Məktəbində, daha sonra Praqa İncəsənət Akademiyasının "Kino və Televiziya" fakültəsində təhsil alıb.

Georgi M. Unkovski

Georgi was born in New York City, after which he spent most of his youth in Macedonia. He graduated from the Rochester Institute of Technology - Eastman's School of Photography and university of FAMU in Prague.

## Tünd qırmızı
## Claret

İran / Iran 2020

Bədii / Fiction 16:09

Əri ilə gərginlik yaşayan qadın yeddi aydan sonra evinə qayıdır. O, evdə qəribə hallarla rastlaşır.

A woman who is emotionally conflicted with her husband returns home after seven months intrusively, and sees strange things in her home.

**Aseman Tusi**

Aseman kino karyerasına sənədli filmlər çəkməklə başlayıb. Filmləri bir sıra beynəlxalq film festivallarında nümayiş olunub. O, eyni zamanda bir neçə roman və pyes müəllifidir.

Aseman Tousi

Aseman started her career with making some documentary shorts. Her films have been screened at a number of international film festivals. She has also written some novels and stage plays.



## Uordun xına mərasimi
## Ward's Henna Party

Misir / Egypt 2020

Bədii / Fiction 22:50

Sudanlı xına rəssamı Həlimə gənc misirli gəlini toyqabağı bəzəməyə gedir. İki qadının görüşü Həlimənin azyaşlı qızı Uordun gözü qarşısında birdən-birə gərginləşməyə başlayır.

Halima, a Sudanese henna painter goes to Basma's, a young Egyptian bride to prepare her for her wedding. Under the eyes of her daughter Ward, the encounter between the two women grows suddenly unveiled tensions.

**Morad Mostafa**

Misirli gənc rejissor kino sənətinə "Kino sarayı" və digər kinostudiyalarda yiyələnib. 2010-cu ildən rejissor köməkçisi kimi kino sənayesində çalışır. "Uordun xına mərasimi" onun ilk qısa filmidir.

Morad Mostafa

The young Egyptian director studied the art of cinema in "Cinema Palace" and other filmmaking workshops. He works in the filmmaking industry since 2010 as an assistant director. He directed his first short film "Ward's Henna Party" in 2019- World Premiere at Clermont Ferrand 2020





## Yara
## Wound

İran / Iran 2020

Bədii / Fiction 8:58

Sevda və Aylar yaxın rəfiqədirlər. Həsən dayı onlara alma verir. Bu da qızlar arasında mübahisəyə səbəb olur.

Sevda and Aylar are close friends. Uncle Hassan gives them apples. And that's the beginning of their dispute.



### Yusif Fəthinecad

Gənc rejissor Yusif Fəthinecad İranın Gənc Kinematoqrafçılar Cəmiyyətində təhsil alıb.

### Yousef Fathinezhad

Yousef Fathinezhad is a Iranian young director. He study cinema and graduated from Iranian young cinema PR.



## Yetmiş
## Seventy

Çin / China 2019

Bədii / Fiction 10:00

70 yaşlı subay kişi Van Şun ucqar kəndlərin birində zibil toplayandı. Bir gün heç kimin marağında olmayan Van Şunun köpəyi ölür. Bu hadisədən sonra o, bu vaxta qədər yığdığı vəsaiti ilə sağlığında özünə dəfn mərasimi keçirir.

Wang Shun is an seventy-year-old single man, who lives for collecting scraps in a backward village, and nobody cares about him. After Wang Shun's old dog died, Wang Shun plans to spends all of his saving to hold a funeral for himself in advance.



### Tonq Jiage

Şanxay Teatr Akademiyasında ədəbiyyat təhsili alıb. Nyu-Yorkda Şəhər Kollecində oxuyarkən kino ilə maraqlanmağa başlayıb. O, filmlərində insanın təbiətini açmağa, onun daxili təlatümlərindən bəhs etməyə çalışır.

### Tong Jiage

She finished a literature degree in Shanghai Theater AcademyDuring. He became interested in cinema while studying at City College of New York. In her films, she tries to reveal human nature, to talk about his internal troubles.



## Yun
## Yun

Çili / Chile 2019

Bədii / Fiction 17:00

Koreya mənşəli gənc qız Yun ənənələri pozduğuna görə atası tərəfindən üç gün evdən uzaqlaşdırılmaqla cəzalandırılıb. Evdən uzaqda o, sürətlə yetkinləşir. Bunu atasi ilə qarşılaşdıqda başa düşür.

Yun a young of Korea ancestry is punished by her father, to spend three days away from home for failing the traditions. In her exile suffer accelerated maturity process, which she only realizes when she faces his father.

### Cankarlo Nasi

Rejissor və ssenarist Valparaiso Universitetində kino ixtisası üzrə dərs alıb. Çəkdiyi qısametrajlı filmlər beynəlxalq kinofestivallarda nümayiş olunub.

### Giancarlo Nasi

Director and screenwriter, he studied Film at the University of Valparaiso. His short films have been shown at international film festivals.





## Zanbaq satan
## The Lilies Seller

Argentina / Argentina 2020

Bədii / Fiction 18:00

Hacinta və nəvəsi İndira Boliviya mühacirləridir. Yazda onlar çay kənarından çiçəklər toplayıb Maqdalena şəhərindəki qəbiristanlıqda satırlar. Onların gündəlik işinə hələ də Argentinada mövcud olan Latın Amerikasının yerli mədəniyyətiylə bağlı irqi problemlər maneə yaradır.

Jacinta and her granddaughter Indira are Bolivian migrants. During the spring they work collecting flowers on the coast of the river, which they then sell in the cemetery of the town of Magdalena. Their daily tasks are hampered by racial problems that still exist in Argentina in relation to the ancestral cultures of Latin America.

### İqor Qaluk

La-Plata Milli Universitetinin "İncəsənət" fakültəsində təhsil alıb. Lentə aldığı qısametrajlı filmlər bir sıra beynəlxalq kinofestivallarda, o cümlədən San-Sebastyan, Lokarno festivallarında iştirak edib.

### Igor Galuk

He is a graduate Faculty of Fine Arts of the National University of La Plata. His short films have participated in a number of international film festivals, including San Sebastian and Locarno.





## Arıçı
## The Beekeeper

Birləşmiş Krallıq / Böyük Britaniya 2020

Sənədli / Documentary 12:00

Anglsi adasında yaşayan arıçı ərazidə atom elektrik stansiyasının tikilməsi üzündən öz tarix ievini itirə bilər.

A beekeeper on the island of Anglesey faces losing her ancestral home due to constraction of a nuclear power plant.



**Uilyam Markqreqor**

Gənc rejissorun bədii debüt filmi "Gwen" bir sıra nüfuzlu beynəlxalq kinofestivallarda iştirak edib, "BAFTA" mükafatına layiq görülüb. "Bovine" qısametrajlı filmi Beynəlxalq Berlin kinofestivalında nümayiş olunub, çəkdiyi reklam çarxları isə "Kann şiri" mükafatlarını alıb.

**William McGregor**

The young director's feature film "Gwen" has participated in a number of prestigious international film festivals and won the BAFTA award.The short film "Bovine" was screened at the Berlin International Film Festival, and its commercials won the Cannes Lion award.



## Atın qanı insanınkından çoxdur
## A Horse Has More Blood Than A Human

İran / Iran 2019

Sənədli / Documentary 19:45

Yaşlı cütlük Tehranı tərk edib Türkiyə ilə sərhəddə yerləşən sakit doğma şəhərlərinə qayıdırlar. Amma onların rahat təqaüdçü həyatı ilə bağlı arzuları darmadağın olur.

An older couple leave Tehran and return to their quiet hometown on the border with Turkey. But their dreams of quiet retirement are shattered.



**Əbolfazl Taluni**

İranda Tehran İncəsənət Universitetində, daha sonra isə Böyük Britaniyada Milli Kino və Televiziya Məktəbində təhsil alıb. O, sənədli filmlər çəkməklə yanaşı həm də, Londonda redaktor kimi tanınır.

**Abolfazl Talooni**

He studied at the Arts University of Tehran in Iran and at the National Film and Television School in the UK. Alongside with making documentary films, he is an established editor in London.



## Bizim yeganə evimiz
## Our Only Home

Türkiyə / Turkey 2020

Sənədli / Documentary 20:00

